**Prezident İlham ƏLİYEV:**

# Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində biz bu gün öz su mənbələrimizə tam sahib olmuşuq.



*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*


AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

17 APREL 2024-cü il ÇƏRŞƏNBƏ № 76 (7834) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ


## Prezident İlham Əliyev Hacıqabul rayonunda Şirvan suvarma kanalının təməlini qoyub



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlini qoyub və çıxış edib.*

*AZƏRTAC xəbər verir ki, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.*

Qeyd edək ki, 1958-ci ildə istifadəyə verilən və ölkənin ikinci ən böyük kanalı olan torpaq məcralı Yuxarı Şirvan suvarma kanalı başlanğıcını Mingəçevir su anbarından götürür. Yuxarı Şirvan kanalı Şirvan düzündə yerləşən Yevlax, Ağdaş, Göyçay, Zərdab, Ucar, Kürdəmir, İsmayıllı və Ağsu rayonlarının 112 min hektardan çox əkin sahəsini suvarma və yaşayış məntəqələrini məişət suyu ilə təmin edir.

### Dövlətimizin başçısı tədbirdə çıxış edib

Suötürmə qabiliyyəti saniyədə 78 kubmetr və uzunluğu 122 kilometr olan kanalın 65 ildən artıq fasiləsiz istismar edilməsi, illik su itkilərinin kəskin artması və qurğuların qəzalı vəziyyətə düşərək funksiyalarını itirməsi nəticəsində torpaqların meliorativ vəziyyəti pisləşərək deqradasiyaya uğrayıb. Bütün bunlar mövcud əkin sahələrinin vegetasiya dövründə suvarma suyu ilə təminatında çatışmazlıqlar yaradıb, bölgənin suya daim artan tələbatının ödənilməsindəki gərginliyi daha da dərinləşdirməklə ekoloji tarazlığın pozulmasına gətirib çıxarıb.

(davamı 2-ci səhifədə)



## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Aprelin 16-da Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib və son dövrlərdə Serbiyanın məruz qaldığı təzyiqlər haqqında məlumat verərək dost Azərbaycan xalqının dəstəyini xahiş edib.

Prezident İlham Əliyev Azərbaycan və Serbiyanın qarşılıqlı surətdə həmişə bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiklərini bildirərək bundan sonra da bu mövqenin davam etdiriləcəyini vurğulayıb. Bu xüsusda, iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı qeyd olunub.

Dövlətimizin başçısı Serbiya Prezidentini BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçiriləcək 29-cu sessiyasına dəvət edib.

Prezident Aleksandar Vuçiç dəvəti məmnuniyyətlə qəbul edib.

Söhbət zamanı Azərbaycan və Serbiya arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşımasından məmnunluq ifadə olunub və ölkələrimiz arasında əlaqələrin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti bildirilib.

## F.Ə.Adıgözəlovun Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fərhad Əsgər oğlu Adıgözəlov Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin İdarə Heyətinin sədri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 aprel 2024-cü il.**



**Bakı-Supsa: inkişaf edən faydalı əməkdaşlığın təməli**

səh. 3




**Hazırlıq yüksək səviyyədə davam edir**

səh. 4




**"Sabitlik bütün inkişafın əsasıdır"**

səh. 6

## Zəngəzur dəhlizi açılmalıdır




*Azərbaycanın İkinci Qarabağ savaşında əldə etdiyi qələbə və 23 saatlıq antiterror tədbirləri nəticəsində suverenliyini tam bərpa etməsi Cənubi Qafqaz regionunda yeni geostrateji reallıqların yaranmasına səbəb olub.*

Həmçinin bölgədə inteqrasiya və çoxtərəfli əməkdaşlıq mühiti formalaşıb. Dövlətimizin təşəbbüsləri ilə kommunikasiya xətlərinin bərpası, yeni nəqliyyat dəhlizlərinin yaradılması gələcək üçün mühüm siyasi və iqtisadi dividendlər vəd edir. Hazırda ölkəmizin qarşısında duran mühüm vəzifələrdən biri də Zəngəzur dəhlizinin açılmasına nail olmaqdır. Böyük güclərin əksəriyyəti də Asiyadan Avropaya doğru uzanan, geniş coğrafiyada yerləşən bu layihənin reallaşmasında maraqlıdır. Zəngəzur dəhlizinin imkanlarından yararlanmaq üçün konstruktiv mövqe, praqmatik davranış ortaya qoymaq vacibdir.

(davamı 5-ci səhifədə)

## Ölkəmiz regionda təhlükəsizliyi və əmin-amanlığı təşviq edir



*Bu gün yenidən formalaşan, qütbləşən dünya nizamında münaqişələr, toqquşmalar, terror hadisələri artır, hərbi təhdidlərin miqyası genişlənir. Beynəlxalq təhlükəsizlik sisteminin zəiflədiyi, hüququn işləmədiyi bir dövrdə dünyanın yenidən bölüşdürülməsi prosesi baş verir.*

Azərbaycanın şimal və cənub qonşularının iştirakı ilə gedən Rusiya-Ukrayna müharibəsi, İran-İsrail qarşıdurması regionda sabitliyə, təhlükəsizliyə təhdid yaradır. Qərb digər bir münaqişə ocağını isə Cənubi Qafqazda alovlandırmağa davamlı cəhd göstərir və bu məqsədini reallaşdırmaq üçün Ermənistandan istifadə edir.

(davamı 6-cı səhifədə)

## Çirkli pulları yuyan "milyarder"

***Özünü "rusiyalı milyarder" kimi qələmə verən Ruben Vardanyanın çirkli pulların yuyulmasında "mütəxəssis" olduğu ortaya çıxıb.***

***Çirkli pul dedikdə qeyri-qanuni yolla əldə edilən gəlirlər nəzərdə tutulur. Belə pulların leqallaşdırılması bir neçə yolla aparılır. Yəni bütün variantlarda cinayət yolu ilə əldə olunan gəlir qanuni vəsait kimi qeydə alınır. Xatırladaq ki, bu termin dünya leksikonuna ilk dəfə 1973-cü ildə "Uoterqeyt qalmaqalı"ndan sonra daxil olub.***

(davamı 5-ci səhifədə)

## Mina probleminin həlli istiqamətində qətiyyətli səylər davam edir




**Minalar münaqişələrdən sonra da uzunmüddətli dağıdıcı təsirə malikdir. Bu partlayıcılar insanları, hətta heyvanları, yəni onları bilmədən işə salan hər kəsi hədəf alır.**

Demək olar ki, hər ay mina hadisəsi yaşanır. Aprelin 12-də Ağdam rayonunun Əliağalı kəndi ərazisində mina partlayışı baş verib. Hadisə nəticəsində 1965-ci il təvəllüdlü Bağırov Mirfəttah Bağır oğlu və 1973-cü il təvəllüdlü Teymurov Xəqani Allahverdi oğlu keçmiş təmas xətti yaxınlığında, minalardan təmizlənməmiş ərazidə piyada əleyhinə minaya düşüb. Hər iki şəxs ayağından xəsarət alıb.

(davamı 5-ci səhifədə)

# Prezident İlham Əliyev Hacıqabul rayonunda Şirvan suvarma kanalının təməlini qoyub









(əvvəli 1-ci səhifədə)

**Yuxarı Şirvan suvarma kanalının infrastrukturunun bərpası, habelə mövcud təsərrüfatların su təminatı məsələlərinin vaxtında və səmərəli şəkildə həllinin dəstəklənməsi, su ehtiyatlarından daha səmərəli istifadə olunması, magistral kanalın suburaxma qabiliyyətinin artırılması məqsədilə aprelin 8-də Prezident İlham Əliyev Şirvan suvarma kanalının yenidən qurulması haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Yuxarı Şirvan suvarma kanalının adı dəyişdirilərək Şirvan suvarma kanalı adlandırılıb.**

**Prezident İlham Əliyev yenidən qurulacaq Şirvan suvarma kanalının təməlini qoydu.**

**Bildirildi ki, Agentliyin sifarişi ilə Türkiyənin "Su Yapı" məsləhətçi şirkəti tərəfindən Yuxarı Şirvan kanalının yenidən qurulması üzrə texniki-iqtisadi əsaslandırma sənədləri və 4 mərhələdə işçi layihə hazırlanıb. Kanalın müasir tələblər səviyyəsində yenidən qurulması və tikintisi mərkəzləşdirilmiş SCADA sistemi yaratmaqla su ehtiyatlarından daha səmərəli istifadəyə və optimal idarəetməyə, yaşayış məntəqələrinin məişət su təminatının yaxşılaşdırılmasına, 230 min hektar torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsinə, o cümlədən 110 min hektardan çox mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına və 116 min hektar əkinə yararlı torpaqların dövriyyəyə cəlb olunmasına, təqribən 346 milyon kubmetr su itkisinin qarşısının alınmasına, Hacıqabul gölünün, ətraf ərazilərin ekoloji və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılmasına, yüksək məhsuldarlığın əldə olunmasına, iri təsərrüfatlara məxsus əkin sahələrini suvarma suyu ilə təmin edən nasos stansiyalarının fəaliyyətinin dayandırılmasına və Pirsaatçay su anbarının nasos stansiyasının qidalandırılmasına imkan verəcək.**

**Sonra dövlətimizin başçısı tədbirdə çıxış etdi.**

## Dövlətimizin başçısı tədbirdə çıxış edib

## *Prezident İlham Əliyevin çıxışı*

–Mən bir neçə gün bundan əvvəl Şirvan suvarma kanalının yenidən qurulması haqqında Sərəncam imzalamışam, bu gün isə kanalın təməli qoyulur. Bu, çox əlamətdar hadisədir. Son illər ərzində Azərbaycanda həyata keçirilən infrastruktur layihələri arasında bu layihənin xüsusi əhəmiyyəti vardır. Çünki Yuxarı Şirvan suvarma kanalı uzun illərdir fəaliyyət göstərir. Kanal torpaq məcralıdır və illər keçdikcə kanalın böyük hissəsi sıradan çıxmışdır. Təbii olaraq bu da itkilərə səbəb olub, su itkiləri kifayət qədər çoxdur. İtkilərə və su sızmalarına görə ətraf torpaq sahələri şoranlaşmış, əkin üçün yararsız vəziyyətə düşmüşdür.

Yuxarı Şirvan kanalı 1958-ci ildə inşa edilmişdir və bu gün kanalın, - artıq bu kanal Şirvan kanalı adlandırılır, - yeni mərhələsi başlayır. Faktiki olaraq kanal yenidən inşa ediləcək və beləliklə, minlərlə insan bu layihədən faydalanacaq. 120 kilometrlik kanalın uzunluğu təxminən iki dəfə artırılacaq və 200 kilometrdən çox olacaq.

Əkin sahələrinə gəldikdə isə o da iki dəfədən çox artırılacaq. İcra ediləcək yeni layihə 230 min hektar əkin sahəsini əhatə edəcək. Bunun böyük hissəsi yeni suvarılacaq əkin sahələridir. Əgər əvvəlki dövrlərdə bu kanal 8 rayonu əhatə edirdisə, indi 10 rayonu əhatə edəcək və kanalın son nöqtəsi, bax, arxamdakı Hacıqabul gölü olacaq. Hacıqabul gölü də 10 ildən çoxdur ki, tamamilə quruyub. Kanal istifadəyə veriləndən sonra göl də dolacaq və bunun da təbiətə çox müsbət təsiri olacaqdır.

Bu layihə bir daha onu göstərir ki, Azərbaycanda həyata keçirilən infrastruktur layihələrinin əsas məqsədi ölkəmizin sürətli inkişafını təmin etmək, insanların rifah halını yaxşılaşdırmaq, xüsusilə bölgələrdə yaşayan insanların məşğulluğu üçün şərait yaratmaqdır. Son illər ərzində əsas infrastruktur layihələri icra edilmişdir. Azərbaycanda həyata keçirilmiş infrastruktur layihələri ölkəmizi tamamilə yeni bir səviyyəyə qaldırmışdır. Elektrik enerjisi, avtomobil yolları, dəmir yolları, su kəmərləri, içməli su layihələri, o cümlədən suvarma ilə bağlı olan layihələr artıq öz səmərəsini göstərir. Əvvəlki illərdə bu sahəyə aid bir çox böyük layihələr icra edilmişdir. Onların arasında, ilk növbədə, Taxtakörpü-Ceyranbatan suvarma kanalını qeyd etməliyəm. Taxtakörpü su anbarının tikintisi də xüsusi əhəmiyyətə malik olan layihə idi. Şəmkirçay su anbarı da çox böyük infrastruktur layihəsi idi. Beləliklə, həm Şimal, həm Qərb bölgələrində əkin üçün yararlı olan torpaqların həcmi və sahəsi böyük dərəcədə artırılmışdır.

Şirvan kanalının əhəmiyyəti də göz önündə olacaqdır. Bu, bizim ən böyük - suyun həcminə və əkin sahələrinin əhatəsinə görə ən böyük layihəmiz olacaqdır. Əminəm ki, yaxın gələcəkdə 10 rayon üzrə yerləşən məntəqələrdə bu yeni kanalın əhəmiyyətini hər kəs görəcək.

Bu layihə ilə biz bu sahəyə yeni nəfəs gətiririk. Eyni zamanda, Qarabağ kanalının da, - vaxtilə bu, Yuxarı Qarabağ kanalı adlandırılmışdır, indi isə bunun adı Qarabağ kanalıdır, - inşası ilə əlaqədar Sərəncam imzalanıb, texniki-iqtisadi əsaslandırma aparılacaq və bu işin nəticəsində yeni layihə işlənib hazırlanacaq. Biz Qarabağ kanalının inşasına gələn ildən başlamalıyıq. Bu da 115 min hektarı əhatə edəcək kanaldır. Orada da əhatə olunan rayonların sayı 9-a bərabərdir. Yəni, burada 10 rayon Şirvan kanalı vasitəsilə, 9 rayon isə Qarabağ kanalı vasitəsilə suvarılacaq.

Ölkəmizin gələcək inkişafının əsas istiqamətləri bundan ibarətdir, çünki qeyri-neft sektorunun inkişafı, kənd təsərrüfatının inkişafı, məşğulluğun artırılması, vətəndaşların rifah halının yaxşılaşdırılması və su ehtiyatlarımızdan səmərəli şəkildə istifadə edilməsi - bütün bu amillər gördüyümüz işlərdə əks olunur.

İqlim dəyişikliyi ilə bağlı dünyada böyük narahatlıq var, o cümlədən Azərbaycanda. Biz indi görürük ki, bu il faktiki olaraq əvvəlki illərdən fərqlənirdi. Bu il kifayət qədər qar, yağış yağmışdır və bizim su hövzələrimizdə, su anbarlarında kifayət qədər su var. Ancaq əvvəlki illərdə biz hər il quraqlıqla üzləşirdik. Bizim dağlarımıza daha az qar yağırdı. Çaylarımızda suyun səviyyəsi əvvəlki illərdə aşağı düşürdü, bəzi hallarda əsas çaylarımız quruyurdu. Xəzər dənizinin dayazlaşması göz önündədir. Bunu hər kəs görə bilir. Belə olan halda su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək bizim başlıca vəzifəmizdir.

Mən bir daha demək istəyirəm ki, Azərbaycanda bir çox infrastruktur layihələri öz həllini tapmışdır. Qazlaşdırmanın səviyyəsi 96 faizə çatıb. Elektrik enerjisi ilə təminat və yeni elektrik stansiyalarının yaradılması geniş vüsət alıb və əhəmiyyətli dərəcədə irəliləyişə nail olmuşuq. Bütün ölkəmiz yeni, müasir yollarla əhatə olunur. Ona görə növbəti illərdə hökumətin qarşısında duran əsas infrastruktur layihələri arasında başlıca vəzifə içməli su layihələri və suvarma layihələri olacaqdır.

Artıq genişmiqyaslı proqram işlənib hazırlanıb. Şirvan və Qarabağ kanalları Taxtakörpü kanalı ilə birlikdə ən böyük suvarma kanalları olduğu üçün bu layihələrə xüsusi əhəmiyyət verilir. Ancaq artıq qəbul edilmiş proqram əsasında Azərbaycanda 10-dan çox su anbarı inşa ediləcəkdir. Məsələn, Qəbələ rayonundakı Yengicə su anbarının inşasına artıq start verilmişdir. O anbar inşa ediləndən sonra orada bu günə qədər suvarılmayan 10 min hektar torpaq, əkin sahələri suvarılacaq. Əgər bizim suvarma ilə bağlı ümumi layihələrimizi götürsək görərik ki, bir neçə ildən sonra ən azı 500 min hektardan çox torpağa su veriləcəkdir. Eyni zamanda, müasir idarəetmə sistemləri, itkilərin azaldılması - indi Şirvan kanalında itkilər 30 faizə yaxındır. İndi beton məcralı kanal inşa ediləndən sonra itkilər maksimum 5 faiz olacaq. Yəni, suya qənaət hər birimizin işidir, ilk növbədə, dövlətin və biz bu işi görürük.

Bunlar ancaq Azərbaycanın bir hissəsinə aid olan layihələrdir. Əgər biz işğaldan azad olunmuş ərazilərdə layihələri əlavə etsək, mənzərə daha ürəkaçan olacaq. Çünki Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində biz bu gün öz su mənbələrimizə tam sahib olmuşuq. Vaxtilə Ermənistan təkcə bizim torpaqlarımızı yox, bizim su resurslarımızı da işğal etmişdir. Qarabağ və Şərqi Zəngəzurda mövcud olan su resursları bizim ümumi su resurslarımızın 25 faizini təşkil edir. Bu su resurslarının əsas xüsusiyyəti, müsbət tərəfi odur ki, bunlar daxili mənbələr hesabına formalaşan su resurslarıdır. Çünki bildiyiniz kimi, bizim əsas çaylarımız xaricdən gəlir - Kür çayı, Araz çayı, Samur çayı. Bizim əsas çaylarımız xaricdən gəlir, ona görə Qarabağın və Şərqi Zəngəzurun su resursları daxili mənbələr olduğu üçün bunun xüsusi əhəmiyyəti var. Biz qısa müddət ərzində böyük infrastruktur layihələrini icra etmişik və bu işlər davam etdirilir.

Bir müddət bundan əvvəl Ağdam rayonunda Xaçınçay su anbarının açılışı olmuşdur. Füzuli rayonundakı Köndələnçay su anbarının yaxın gələcəkdə açılışı olacaqdır. Hazırda Zabuxçay su anbarının inşası gedir. Suqovuşan su anbarı demək olar ki, yenidən qurulub və o anbardan çıxan iki kanalın biri artıq tam təmir edilib, ikinci kanal da təmir ediləcək və beləliklə, erməni işğalına görə sudan məhrum olmuş bir neçə rayona artıq su veriləcək. Yeni əkin sahələrinin həcmi 100 min hektara yaxın olacaq. Ona görə mən deyəndə ki, ən azı 500 min hektar torpağa su veriləcək, bunu nəzərdə tuturam. Nəzərə alsaq ki, Azərbaycanda suvarılan əkin sahələrinin həcmi o qədər böyük deyil, bu layihələrin xüsusi əhəmiyyəti var. Qarabağ və Şərqi Zəngəzurda digər böyük suvarma layihələri nəzərdə tutulur. Həkəriçay, Bərgüşadçay su anbarlarının və kanalların inşa edilməsi nəzərdə tutulur. İndi texniki-iqtisadi əsaslandırmalar hazırlanır və hesab edirəm ki, gələn ildən biz bu layihələrin icrasına da başlaya bilərik.

Təbii ki, bütün bunlar böyük vəsait tələb edir. Azərbaycan dövləti güclü dövlətdir, öz gücünə, öz imkanlarına arxalanan dövlətdir. Biz Qarabağda və Şərqi Zəngəzurda elə genişmiqyaslı işlər görürük ki, bunun dünyada misli-bərabəri yoxdur. Həm yaşayış evləri, infrastruktur layihələri, suvarma layihələri, dəmir yolları, tunellər, hava limanları - cəmi üç il ərzində görülmüş işlər dövlətimizin gücünü, hökumətimizin və dövlətimizin iradəsini göstərir. Dediyim bu layihələrin hamısı icra ediləcək. Hələ bunlardan başqa bir çox layihələr olacaq ki, sadəcə onlar işin həcmi nöqteyi-nəzərdən daha kiçikdir. Amma hər bir layihənin əhəmiyyəti var və beləliklə, su ehtiyatları məhdud olan Azərbaycan bu sahədə də özünü tam təmin etmiş olacaq.

Bir layihəni də qeyd etməliyəm. İndi bu layihə üzərində iş aparılır. Bu da Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsidir. Bu layihə həyata keçiriləndən sonra biz Xəzər dənizinin suyundan da həm suvarma üçün, həm içməli su kimi istifadə edəcəyik. Dünyanın bir neçə ölkəsi duzsuzlaşdırma sahəsində böyük təcrübəyə malikdir və bizim də Xəzər dənizi kimi böyük su hövzəmiz var. Təbii ki, biz bu imkandan da istifadə edəcəyik. Beləliklə, bu gün təməlini qoyduğum kanalın yaxın gələcəkdə çox böyük müsbət nəticələri olacaq.

Mən bir həftə bundan əvvəl Hacıqabul rayonunda yerləşən aqroparkın fəaliyyəti ilə tanış olmuşam. Mənə məlumat verildi ki, burada 4 mindən çox hektarda taxıl əkini aparılmışdır və məhsuldarlıq hər hektardan buğda üzrə 7 tona yaxın olmuşdur. İndi müqayisə üçün deyim ki, ölkəmizdə orta məhsuldarlıq hər hektardan 3 tondan bir qədər çoxdur. Burada - Hacıqabulda heç vaxt o sahələrdə əkin aparılmamışdır - nə sovet vaxtında, nə müstəqillik dövründə. Çünki su yox idi və torpaq da o qədər münbit deyil. Su olanda, yeni texnologiyalar tətbiq ediləndə, texnika, dövlətin dəstəyi, özəl sektorun fəaliyyəti - bütün bu amillər birləşəndə, bax, biz bu nəticəni görürük - Hacıqabulda hər hektardan 7 ton. Amma torpağı daim münbit olan yerlərdə bu rəqəm daha da arta bilər. Ancaq mən sizə deyim ki, hər hektardan taxıl üzrə 7 ton məhsuldarlıq - bu, inkişaf etmiş ölkələrin səviyyəsidir. Özü də bu, ərzaqlıq buğdadır ki, bizə ən çox lazım olan ərzaqlıq buğdadır. Biz hələ ki, idxaldan asılıyıq. Əgər bu texnologiyalar təkcə Şirvan kanalı boyunca, bax, orada göstərilən, yerləşən ərazilərdə tətbiq olunsa, onda biz idxaldan asılılığı böyük dərəcədə azaldacağıq. Sadaladığım digər layihələr icra edildikdə biz bəlkə də nə vaxtsa idxaldan, ümumiyyətlə, imtina edəcəyik.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur torpaqlarında indi quruculuq işləri ilə bərabər, kənd təsərrüfatının inkişafı geniş vüsət almışdır. Oraya qayıdan vətəndaşlar artıq bu imkanlardan istifadə edirlər. Eyni zamanda, ən müasir texnologiyaların tətbiqi nəticəsində orada həm taxılçılıq, həm meyvəçilik, bostançılıq, üzümçülük geniş vüsət alacaq. Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın ən gözəl yerlərindən biridir və kənd təsərrüfatı üçün yararlı torpaqların, su resurslarının - çayların, bulaqların, yaylaqların mövcudluğu həm heyvandarlıq, həm də bitkiçilik üzrə çox böyük imkanlar yaradır. Biz hər şeyi planlı şəkildə edirik ki, hər qarış torpaqdan maksimum məhsuldarlıq, maksimum səmərə götürək və bunu edəcəyik.

Əminəm, Azərbaycan xalqı da tam əmindir ki, dediyimiz bütün sözlər, verdiyimiz bütün vədlər hər zaman yerinə yetirilir və bu gün dediyim, bu layihələrin icrası da tam təmin ediləcək. Biz üç ildən sonra - uzaqbaşı 2027-ci ilin sonuna qədər Şirvan kanalının da açılışını qeyd edəcəyik.

**AZƏRTAC**

## "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında Türkiyə-Azərbaycan Universitetinin (TAU) yaradılmasına dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il fevralın 19-da Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında Türkiyə-Azərbaycan Universitetinin (TAU) yaradılmasına dair Anlaşma Memorandumu" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 aprel 2024-cü il.**

## A.M.İbadovun Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin İdarə Heyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Aydın Münsüf oğlu İbadov Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin İdarə Heyətinin sədri vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 aprel 2024-cü il.**

## "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 7-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 10, maddə 704 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci maddənin mətni birinci hissə hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü hissələr əlavə edilsin:

"Ölkə üzrə sonuncu bələdiyyə seçkilərinin keçirildiyi ildən sonrakı 4 ilin son 2 ili ərzində əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələr onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə digər bələdiyyələrlə birləşdirilir.

Birləşmə və ya ayrılma nəticəsində əhalisinin sayı 3000 nəfərdən və (və ya) ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələrin yaradılmasına onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla yol verilir.".

**2.** 2-ci maddə üzrə:

*2.1.* birinci hissənin birinci abzasında "Bələdiyyələrin" sözü "Bu Qanunun 1-ci maddəsinin birinci hissəsində nəzərdə tutulan halda bələdiyyələrin" sözləri ilə əvəz edilsin;

*2.2.* aşağıdakı məzmunda ikinci və üçüncü hissələr əlavə edilsin:

"Bu Qanunun 1-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulan halda bələdiyyələrin birləşdirilməsi aşağıdakı qaydada həyata keçirilir:

1) birləşən hər bir bələdiyyə birləşmə ilə bağlı rəyini baxılmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir;

2) Azərbaycan Respublikasının Milli Məclisi əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyədə yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla həmin bələdiyyənin digər bələdiyyə ilə birləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq surətdə qərar qəbul edir.

Bu maddənin ikinci hissəsində müəyyən olunmuş qaydada yaranan bələdiyyənin adı birləşən bələdiyyələrin arasında əhalisinin sayı ən çox olan bələdiyyənin adına uyğun müəyyən edilir.".

**3.** 3-cü maddənin mətnində "maddəsində" sözü "maddəsinin birinci hissəsində" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 aprel 2024-cü il.**

## "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 7-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 405 (Cild I) 13-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Mətni 1-ci hissə hesab edilsin, həmin hissədə "birləşdirilərkən, ayrılarkən, yenidən təşkil edilərkən" sözləri "yenidən təşkil edilərkən (birləşdirilərkən, ayrılarkən)" sözləri ilə əvəz edilsin və həmin hissəyə "xüsusiyyətlər," sözündən sonra "habelə "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq" sözləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda 2-ci və 3-cü hissələr əlavə edilsin:

"2. Təşkil və ya yenidən təşkil nəticəsində əhalisinin sayı 3000 nəfərdən və (və ya) ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələrin yaradılmasına onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla yol verilir.

**3.** Bu maddənin 2-ci hissəsində nəzərdə tutulan ev təsərrüfatlarının uçotu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada aparılır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 aprel 2024-cü il.**

## "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1129-VIQD nömrəli Qanununun tətbiqi və "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 162 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1129-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

*1.1.* "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

*1.2.* həmin Qanunun 13-cü maddəsinin 3-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin 3-cü hissəsinə uyğun olaraq, ev təsərrüfatlarının uçotu qaydasını on beş gün müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.2.* "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1129-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 162 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 424 (Cild I) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

*3.1.* 3.2-3.6-cı bəndlərdə "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "həmin Qanunun" sözləri ilə əvəz edilsin;

*3.2.* aşağıdakı məzmunda 3.2-1-ci və 3.2-2-ci bəndlər əlavə edilsin:

"3.2-1. həmin Qanunun 13-cü maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2-2. həmin Qanunun 13-cü maddəsinin 3-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 aprel 2024-cü il.**



*Torpaqlarımız işğaldan azad edildikdən sonra Qarabağda irimiqyaslı tikinti-quruculuq işləri aparılır və yeni məktəb binaları tikilir. İlk müjdə olan Zəngilan rayonu Ağalı kənd məktəbi 2022-2023-cü tədris ilində şagirdlərə öz qapılarını açdı. Davamlı həyata keçirilən Böyük Qayıdış Proqramına uyğun olaraq bölgəyə köçən ailələrin uşaqlarının təhsili diqqət mərkəzində saxlanılır. Qarabağ torpaqlarının işğalı nəticəsində təkcə Füzuli rayonunda 100-ə qədər orta təhsil və texniki peşə məktəbi ermənilər tərəfindən məhv edilib. Qubadlıda yaşı 100 ildən çox olan ilk dünyəvi məktəb də yerlə-yeksan edilib.*

# Qardaş xalqın dəstəyi

Azərbaycanın mədəniyyət beşiyi hesab edilən Şuşa şəhərinin işğalı nəticəsində isə 23 ümumtəhsil məktəbi, 6 məktəbəqədər uşaq müəssisəsi, 7 məktəbəqədər uşaq tərbiyə müəssisəsi, peşə-ixtisas məktəbi, mədəni-maarif, kənd təsərrüfatı, M.M.Nəvvab adına texnikumları 2 saylı Bakı Baza Tibb Texnikumunun filialı, həmçinin Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin, Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Ədəbiyyat İnstitutunun filialları dağıdılıb. Qədim tarixi olan Şuşa Realnı Məktəbi də xarabalığa çevrilib.

Vaxtilə Ağdam şəhərində musiqi, kənd təsərrüfatı, kənd təsərrüfatı mexanikləşdirmə və elektrikləşdirməsi texnikumları, 9 ümumtəhsil və internat, iki peşə, həmçinin Uşaq Şahmat, uşaq-gənclər idman, ekoloji tərbiyə və təcrübəçilik, tibb məktəbləri, texniki yaradıcılıq mərkəzləri fəaliyyət göstərib. Həmin təhsil ocaqlarının binaları da ermənilər tərəfindən yerlə-yeksan edilib. Lakin Azərbaycan dövlətinin 44 günlük Vətən müharibəsində qazandığı qələbə nəticəsində 30 illik işğala son qoyuldu, ərazilərimiz düşməndən azad edildi. Üç ildən artıqdır ki, Qarabağ və Şərqi Zəngəzur bölgəsində aparılan tikinti-quruculuq işləri nəticəsində bu bölgələr yenidən canlanır. Sevindirici haldır ki, tikilib bərpa edilən ərazilərdə bu vaxta kimi 8 məktəb fəaliyyətə başlayıb və bu təhsil müəssisələrində 800-dən çox şagird təhsil alır.

30 il ərzində ermənilər tərəfindən dağıdılmış məktəblər yenidən tikilir və Qarabağda yeni məktəblərin tikilməsində qardaş dövlətlərin də payı var. İlkin olaraq öz təşəbbüsü ilə Füzulidə məktəb tikintisi həyata keçirən Özbəkistan dövləti olmuşdur. Prezident Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən məktəb 960 şagird yerlikdir. Ötən il avqust ayının 22-də Azərbaycana səfəri zamanı Füzuli şəhərində də olan Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva yeni inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak etmişlər.

Dost Qazaxıstan Respublikası tərəfindən Füzuli şəhərində inşa edilən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi ölkələrimiz və xalqlarımız arasında dostluğun, qardaşlığın simvolu kimi çox dəyərlidir. Son zamanlar daha bir qardaş Türk dövləti - Qırğızıstan da öz töhfəsini verəcək. Qeyd edək ki, Azərbaycan və qırğız xalqları ortaq mədəniyyətə malikdirlər və ölkələr arasında bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də əlaqələr inkişaf edir. 2000-ci il aprelin 9-da "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubiley mərasimində Qırğızıstan nümayəndə heyəti, həmin ilin payızında Qırğızıstanın Oş şəhərinin 3000 illiyi münasibətilə keçirilən yubiley tədbirlərində isə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir. Bir-birinə sıx tellərlə bağlı olan xalqlarımızın dostluq, qardaşlıq əlaqələrinin tarixi qədimdir. Çünki biz, eyni kökə, soya, dilə, dinə malikik. Digər tərəfdən, bu gün Qırğızıstanda 20 minə qədər azərbaycanlı yaşayır. Soydaşlarımızın əksəriyyəti ötən əsrin 30-cu illərinin repressiyaları zamanı Azərbaycandan sürgün olunanlar və onların övladlarıdır. Keçmiş SSRİ dövründə də hər iki ölkə arasında iqtisadi və mədəni əlaqələr yaranmışdır. SSRİ dağıldıqdan, postsovet məkanında müstəqil dövlətlər yarandıqdan sonra bu münasibətlər daha da inkişaf etmişdir. İki ölkə arasında diplomatik əlaqələr 1993-cü il yanvar ayının 19-da qurulmuşdur. 1996-cı ilin ortalarında Azərbaycan Respublikasının Qırğızıstanda, 1998-ci ilin may ayında isə Qırğızıstan Respublikasının Azərbaycanda səfirlikləri fəaliyyətə başlamışdır.

Qırğızıstandakı Azərbaycan diasporunun nümayəndələri biznes və iqtisadiyyatın digər sahələrində fəal iştirak edirlər. Soydaşlarımız əsasən Bişkek, Talas, Qara-Balta şəhərlərində yaşayırlar. Öz tarixi yurdlarından ayrı yaşamalarına baxmayaraq, Qırğızıstandakı azərbaycanlılar dil və adət-ənənələrini qoruyub saxlayırlar.

2004-cü il oktyabrın 29-da BMT Baş Məclisinin 59-cu sessiyasının 46-cı plenar iclasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı bəndin Baş Məclisin cari gündəliyinə salınmasına dair qərar Qırğızıstan tərəfindən dəstəklənmişdir. 1994-cü ilin may ayında MDB-nin vasitəçiliyi ilə Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında müqavilə məhz Bişkek şəhərində imzalanmışdır. Bu mənada, Qırğızıstan hər zaman Azərbaycanın haqlı mübarizəsində yanında olmuş və öz dəstəyini əsirgəməmişdir. Bu gün də hər iki dövlət arasında münasibətlər yüksək səviyyədə davam edir. Ötən ilin 19-20 sentyabr tarixində Qarabağda aparılan antiterror əməliyyatları zamanı Qırğızıstan Respublikası bir daha Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyini bildirmişdir. Qırğızıstan XİN-in yaydığı bəyanatda bildirilirdi: "Beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığını qətiyyətlə müdafiə edən Qırğızıstan Respublikası bütün məsələlərin BMT Nizamnaməsinə və beynəlxalq hüququn fundamental prinsip və normalarına uyğun olaraq siyasi və diplomatik vasitələrlə həllinə çağırır".

Qırğızıstan Respublikasının təşəbbüsü ilə işğaldan azad edilən Ağdam rayonunun Xıdırlı kəndində orta məktəb binası inşa ediləcək. Bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Qırğız Respublikasının xarici işlər naziri Ceenbek Kulubayev ilə aprel ayının 9-da keçirilən görüşündə bildirilib: "Qırğızıstanın sülh və quruculuq prosesinə dəstəyi təqdirəlayiqdir, habelə Qırğız Respublikasının təşəbbüsü ilə Ağdamın Xıdırlı kəndində inşa ediləcək orta məktəb bu dəstəyin bariz nümunəsidir".

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

# Bakı-Supsa

## inkişaf edən faydalı əməkdaşlığın təməli




*Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra təbii sərvətimiz olan neft ölkənin inkişafında mühüm rol oynadı. Ümummilli lider Heydər Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi neft strategiyasının bir hissəsini ölkənin neft yataqlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən neft gəlirlərinin səmərəli idarə edilməsi, həmin vəsaitlərin öncül sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsi təşkil edirdi.*

1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. "Əsrin müqaviləsi" adlanan bu dövlət sənədində bir neçə neft boru kəmərinin tikilib istifadəyə verilməsi nəzərdə tutulurdu. Bakı-Supsa neft kəməri də bunlardan biridir. Məhz Azərbaycanda hasil edilən neft Gürcüstandan keçən və dünya bazarlarına nəql olunan kəmər haqqında müqavilə 1996-cı ilin 6 martında Tbilisidə imzalanıb. Uzunluğu 830 km, illik ötürmə qabiliyyəti 5,1 milyon ton, gündəlik ötürmə gücü 115 min barel neft olan bu kəmərin dəyəri 565 milyon ABŞ dollarıdır. Bununla yanaşı, boru kəmərinin tam gücü ilə işləməsini təmin etmək məqsədilə Supsada hər birinin tutumu 250 min barel olan 4 terminal da tikilərək istifadəyə verilib. 1997-ci il 12 noyabr tarixində ilk neft Azərbaycanın "Çıraq" neft yatağından Supsaya göndərilib. Ümummilli lider Heydər Əliyev bu önəmli hadisəni qeyd etmək məqsədilə dənizdə tikilən platformaya baş çəkib. Burada çalışan azərbaycanlılarla yanaşı, xarici neftçilərlə də görüşüb.

Ulu öndərin müəllifi olduğu neft strategiyası Azərbaycanın öz milli sərvətinin sahibi olmasının, iqtisadiyyatımızın dünyaya qovuşmasının rəmzidir. Elə bu məqsədlə də 1999-cu il 29 dekabr tarixli Fərmanla Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) təsis edildi. Neft Fondunun Əsasnaməsi Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq olundu. Əməli fəaliyyətə isə 2001-ci ilin iyun ayında Fondun vəsaitlərinin yerləşdirilməsi qaydalarının Prezident Fərmanı ilə təsdiq edilməsindən sonra başlayıb. Uzaqgörən siyasətçi çox gözəl bilirdi ki, görülən bütün bu nəhəng işlər gələcəkdə müstəqil Azərbaycanın iqtisadi müstəqilliyinin əsasını təşkil edəcək. Şübhəsiz, tarix ümummilli liderin haqlı olduğunu bir daha sübut etdi.

Həm xarici neft şirkətləri, həm də ölkəmiz üçün iqtisadi baxımdan sərfəli olan Bakı-Supsa neft kəmərindən söz açarkən deyə bilərik ki, siyasi sabitliyin təmin olunmasında onun özünəməxsus yeri var. Daşınma tariflərinin xeyli aşağı olmasına görə kəmər Şimal marşrutu ilə müqayisədə rəqabət qabiliyyətini ciddi şəkildə artırırdı. Bəzi hesablamalara görə, neftin Bakı-Supsa kəməri ilə ixrac edilməsi o zamankı qiymətlərlə Azərbaycana ildə 70-100 milyon dollar qənaət etməyə imkan yaradırdı.

O dövrdə Bakı-Supsa Azərbaycan və Gürcüstan arasındakı əməkdaşlığın zirvəsi hesab edilirdi. Lakin bu gün ölkəmizin həmin neft kəməri ilə neft ixracı xeyli azalıb. Buna səbəb 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsidir. 2022-ci ilin may ayında Rusiya-Ukrayna müharibəsi səbəbindən fəaliyyəti tam dayandırılmış bu kəmərlə ay ərzində nəql olunan, təqribən, 3 milyon barel neft Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəmərinə yönləndirilib. Lakin ötən ilin fevralında qısa müddətə bərpa edilərək Xəzər dənizindəki "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan çıxarılan neftin nəqli bu ixrac marşrutu ilə davam etdirilib. Bu da fevralın 6-da Türkiyədə baş vermiş zəlzələ fonunda bu ölkənin Aralıq dənizi sahilindəki Ceyhanda BTC boru kəmərinin ixrac terminalının altı günlük bağlanması ilə əlaqədar baş verib. Həmin vaxt Supsa limanından Azərbaycan nefti yüklənmiş bir neçə tanker dünya bazarına göndərilib.

Ölkəmiz üçün əsas gəlir mənbələrindən biri olan neft sektoru sürətlə inkişaf edir, bu məqsədlə bir çox ölkələrlə qarşılıqlı əməkdaşlıq qurulur. Azərbaycan regionda bu sahədə əsas aktordur.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**

# Azərbaycan ilə Türkiyə arasında hərbi informasiya sahəsində qarşılıqlı təcrübə mübadiləsi aparılıb

**Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr Müşavirliyinin nümayəndə heyəti ilə görüş keçirilib.**




Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi polkovnik Anar Eyvazov müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq qərarı ilə təsdiq edilmiş nazirliyin Kommunikasiya Strategiyası ilə bağlı geniş məruzə ilə çıxış edib. Həmçinin Azərbaycan Ordusunun şanlı Qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsində və sonrakı hərbi əməliyyatlarda informasiya sahəsində əldə edilən uğurlar və dezinformasiyalara qarşı aparılan mübarizə tədbirləri haqqında danışıb.

Sonra qardaş ölkənin nümayəndə heyəti Türkiyə Silahlı Qüvvələrində kommunikasiya sahəsində görülən işlərə dair brifinq təqdim edib.

Görüşdə hər iki ölkə ordularında strateji kommunikasiyanın, o cümlədən mətbuat və ictimaiyyətlə əlaqələr işinin təşkilinə dair ətraflı fikir mübadiləsi aparılıb, hərbi informasiya sahəsində birgə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Daha sonra türkiyəli nümayəndə heyəti Mətbuat Xidməti, Hərbi Nəşriyyat, "Azərbaycan Ordusu" qəzetinin redaksiyası, Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin fəaliyyəti ilə tanış olublar. ■

# Paytaxtın Nizami rayonunda ağacəkmə aksiyası keçirilib

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib



**Aprelin 16-da Heydər Əliyev Fondunun vitse-prezidenti, "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində paytaxt Bakının Nizami rayonunun Mikayıl Əliyev və Kamil Balakişiyev küçələrinin kəsişməsində yerləşən boş ərazidə ağacəkmə aksiyası həyata keçirilib.**



AZƏRTAC xəbər verir ki, bu ərazi vaxtilə tikinti materialları və məişət tullantıları ilə mütəmadi olaraq çirkləndirilmişdir. "IDEA" İctimai Birliyinin təşəbbüsü və könüllülərin iştirakı ilə həmin ərazi tullantılardan təmizlənib, torpaq qatının tökülməsi ilə rekultivasiya edilib.



Təəssüf ki, bu gün paytaxtımızda hava təbəqəsi avtomobil nəqliyyatı, istehsal və istehlak fəaliyyəti zamanı yaranan tullantılarla çirklənir, havada olan toz və digər yad maddələr insan sağlamlığına, bütün ekoloji tarazlığa zərər verir. Meşə zolağının salınması, yaşıllaşdırma fəaliyyətləri ekoloji tarazlığın bərpasına və havanın keyfiyyətinin yaxşılaşdırılmasına müsbət təsir edir.

Leyla xanım Əliyevanın iştirakı ilə baş tutan budəfəki aksiyada meşə zolağının salınması nəzərdə tutulan ərazinin sahəsi 2 hektara yaxındır. Aksiya zamanı 500 Eldar şamı, sərv, tuya, akasiya, zeytun ağacları əkilib və abadlıq işləri aparılıb. Bu ərazidə ağacların səmərəli sulanması və su israfının qarşısının alınması üçün damcılı suvarma sistemindən istifadə nəzərdə tutulub.

"IDEA" İctimai Birliyi bu cür ekoloji aksiyaların mütəmadi olaraq təşkili ilə ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə, gənc nəslin diqqətinə çatdırır və onları ekoloji problemlərə qarşı mübarizədə birgə fəaliyyətə səsləyir. ■





# Bakıda Leyla Əliyevanın iştirakı ilə növbəti abad həyətlər sakinlərin istifadəsinə verilib



**"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Heydər Əliyev Fondunun vitse-prezidenti, "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Bakı şəhəri Xətai rayon Rahib Məmmədov küçəsi 4. 4a. 15q. və Cavanşir küçəsi 7 və 9 saylı ünvanlarında 2200-dən çox sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edən həyətlər abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.**

AZƏRTAC xəbər verir ki, aprelin 16-da baş tutan açılış mərasimində iştirak edən Leyla Əliyeva tədbir çərçivəsində keçirilən kütləvi ağacəkmə aksiyasında iştirak edib, həyətin azyaşlı sakinlərinə hədiyyələr təqdim edib.





Qeyd edək ki, "Bizim həyət" layihəsinin əsas məqsədi paytaxt ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad olması, yaşıllıqların bərpası, mənalı istirahət mühitinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. Abadlaşdırılan həyətlərdə sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onlarda idmana marağın artırılması məqsədilə ərazidə süni örtüklü futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaqlar üçün oyun meydançaları salınıb. Eyni zamanda, həyətyanı sahələrdə beş söhbətgah, çoxsaylı oturacaqlar, quş yuvaları və pişik evləri quraşdırılıb. Bundan əlavə, həyətlərdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü, elektrik xətləri yenilənib.

Həyətlərin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, müxtəlif növ 1680 ağac, 19 min 256 kol bitkisi əkilib, 8549 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətrafında sıx bitən və havanın çirklənməsinin qarşısını almaq məqsədilə adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkilərək "yaşıl sədlər" yaradılıb.

Məlumat üçün bildirək ki, "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ildən etibarən icra olunan "Bizim həyət" layihəsi çərçivəsində bu günədək 152 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.

Xüsusi olaraq qeyd edək ki, "IDEA" İctimai Birliyi həyətlərin abadlaşdırılması və yenidənqurma işlərinin aparılması istiqamətində sakinlərin təklif və müraciətlərini İctimai Birliyə təqdim etməyə çağırır. Müraciətlərinizi "IDEA" İctimai Birliyinin qaynar xətti "1113" və ya e-mail ünvanına (info@ideacampaign.org) göndərməyiniz xahiş olunur. ■

# Hazırlıq yüksək səviyyədə davam edir

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Azərbaycanda keçirilməsi dövlətin beynəlxalq nüfuzunun göstəricisidir. Bu gün qlobal sferada ölkəmizin üzərinə düşən vəzifəni yerinə yetirəcəyinə olduqca böyük inam var. 2024-cü ilin noyabr ayında keçiriləcək tədbir üçün hazırlıq işlərinin layiqincə aparılması üçün Azərbaycan Prezidentinin Sərəncamı ilə Təşkilat Komitəsinin yaradılması bu istiqamətdə atılan mühüm addımdır.**

Bakıda keçiriləcək tədbir iqlim dəyişmələri ətrafında yeni yanaşmalar yaradacaq və dünya ölkələri arasında əməkdaşlıq daha da güclənəcəkdir. Problemin əhatə dairəsini nəzərə alsaq qlobal güclərin, ümumilikdə bütün dövlətlərin məhz bu məsələdə həmrəy olması vacibdir. COP29 kimi mühüm platformada vahid yanaşma ortaya qoymaq əsas hədəf olaraq təyin edilib. Bununla yanaşı, COP29 bir daha Azərbaycanın gündəliyində "yaşıl enerji"nin inkişafı və onun dünya bazarlarına ixracının prioritet olduğunu bütün dünyaya göstərəcək.

Ölkəmizdə hazırda "yaşıl kənd təsərrüfatı", "yaşıl nəqliyyat" kimi layihələri də uğurla tətbiq edilir. Azərbaycan dünyada neft hasilatında nüfuz qazanmış dövlətlərdən olsa da, "yaşıl enerji" ilə bağlı kifayət qədər layihələr həyata keçirir. Ölkəmizdə günəş və külək elektrik stansiyaların tikintisi bunu bir daha təsdiq edir.

COP29 Baku Azerbaijan



Hazırda dövlətimizin "yaşıl enerji" iqtisadiyyatına verdiyi dəyər əməli fəaliyyətlərdə bir daha özünü büruzə verir. Məsələn, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını qarşısına məqsəd qoyub. Eyni zamanda respublikamız bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdən hesab olunur ki, bu da Azərbaycana olan etimadı daha da artırır. Dövlətimizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavat təşkil edir. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min, günəş enerjisi üzrə 23 min, bioenerji potensialı 380 meqavatdır. Dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir. Azərbaycanda bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafına dair Milli Prioritetlər" əsasında qoyulub. Həmin sənəddə öz əksini tapan 5 milli prioritetdən biri "təmiz ətraf mühit" və "yaşıl artım"la bağlıdır. Bütün bunlar bir daha rəsmi Bakının yaşıl iqtisadiyyata keçidlə bağlı qarşıya yeni hədəflər qoyduğunu göstərir. Bununla yanaşı, Azərbaycanla Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri arasında bərpaolunan enerji üzrə pilot layihələrin həyata keçirilməsi ilə bağlı imzalanmış müqavilələr ölkəmizin "yaşıl enerji"yə verdiyi töhfənin bariz nümunəsidir.

44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbə nəticəsində işğaldan azad olunmuş Şərqi Zəngəzur və Qarabağ torpaqları "yaşıl enerji zonası" elan edilib. Həmin ərazilərin 2050-ci ilədək "netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulub.

Düşməndən təmizlənmiş torpaqlarımızda həmin layihələrin tətbiqi Böyük Qayıdış proqramının uğurla davam etdiyindən xəbər verir. İllər ərzində düşmənin xarabalığa çevirdiyi Qarabağda artıq "ağıllı şəhər"lər, "ağıllı kənd"lər, müasir su anbarları, digər böyük müəssisələr tikilir. Yaxın gələcəkdə isə Qarabağ və Şərqi Zəngəzurun ətraf mühitin sağlam olduğu əraziyə çevrilməsi nəzərdə tutulub. Prezidentin "Yaşıl dünya naminə həmrəylik ili" haqqında Sərəncamında da dövlətimizin "yaşıl enerji" sahəsində çoxsaylı tədbirlər həyata keçirəcəyi öz əksini tapıb. Şübhəsiz, cari ildə baş tutacaq COP29-da bu istiqamətdə daha təqdirəlayiq qərarlar qəbul olunacaq, mühüm addımlar atılacaq. Ölkəmizin nüfuzuna və beynəlxalq aləmdə imza atdığımız uğurlara nəzər yetirsək, bu, doğrudan da real görünür. Dünya liderlərinin, həmçinin bərpaolunan enerji üzrə mütəxəssislərin məhz Azərbaycanda toplanması, yeni təşəbbüslərin və istiqamətlərin müəyyənləşməsinə öz müsbət təsirini göstərəcək.

Hazırda beynəlxalq tədbirə hazırlıq məqsədilə mühüm işlər görülür. Belə ki, aprelin 15-də COP29-un baş qərargahında ilk mətbuat konfransı keçirilib. İclasda COP29-un loqosu beynəlxalq ictimaiyyətə təqdim edilib. COP29 sədrliyinin çoxşaxəli təşəbbüslər toplusunu özündə əks etdirən loqoda buta, yarpaq və su damlaları simvollarının sintezi təbii resursların əhəmiyyəti kontekstində ekoloji həssaslığa və Azərbaycanın zəngin mədəni irsinə xitab edilib. Azərbaycanın tarixi-mədəni irsini özündə ehtiva edən buta motivi davamlılıq və innovasiyanı təmsil etməklə yanaşı, həm də keçmişlə gələcək arasında körpünü simvolizə edir. Butaların birləşməsi birliyi, illüstrativ su damlaları şəklində olan butalar isə özü-özlüyündə beş fərqli elementi ifadə edir - flora və fauna, hava və külək, su, enerji və kainat. Tədbirin loqosu iqlim çağırışlarının yüksəldiyi dövrdə bəşəriyyət və ətraf mühit arasında əlaqəni, ekoloji cəhətdən həssas davranış və nəticəyönümlü fəaliyyətin əhəmiyyətini təzahürdür. Həmçinin tədbirin Bakı Olimpiya Stadionunda keçirilməsinə qərar verilib.

Bu cür mötəbər tədbirə ev sahibliyi etməklə Azərbaycan nəinki bu istiqamətdə, hətta bütün sahələrdəki inkişafını dünya ictimaiyyətinin diqqətinə çatdıracaq.

**Nurlan ABDALOV,**
**"Respublika".**

*COP - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*

COP29
BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası

# Energetika naziri Əbu-Dabidə Azərbaycanın "yaşıl hidrogen" kursundan danışıb

**Energetika naziri Pərviz Şahbazov Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsi çərçivəsində keçirilən Yaşıl Hidrogen Sammitində iştirak edib.**

Energetika Nazirliyinin mətbuat xidmətinin verdiyi məlumatda bildirilir ki, "Yaşıl Hidrogen İqtisadiyyatlarını Sürətləndirmək üçün Milli Strategiyalar və Siyasətlər" üzrə Nazirlər Panelində energetika naziri hidrogenin Azərbaycanın transformativ inkişaf və enerji təchizatçısı gündəliyinin əsas komponentlərindən olduğunu qeyd edib. Bildirilib ki, hidrogenin istehsalı, ondan istifadə Azərbaycanın "təmiz ətraf mühitə malik yaşıl artım" ölkəsi kimi inkişaf strategiyası, azad edilmiş ərazilərin "yaşıl enerji zonası"na çevrilməsi, həmçinin Avropa İttifaqı ilə enerji tərəfdaşlığına dair strateji sənədlərdə öz əksini tapır. Xəzər dənizində 157 qiqavat külək enerjisi potensialı əsasında 28 QVt-dan çox "yaşıl enerji" layihələri üzrə "Masdar", "ACWA Power", bp, Fortescue və digər beynəlxalq enerji şirkətləri ilə imzalanmış əməkdaşlıq sənədlərində "yaşıl hidrogen" istehsalının da nəzərdə tutulduğu vurğulanıb. Hazırda hidrogenin istehsalı ilə yanaşı, ixracı aspektində "Xəzər dənizi-Qara dəniz-Avropa", "Mərkəzi Asiya-Azərbaycan-Avropa" yaşıl enerji dəhlizləri çərçivəsində beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edildiyi bildirilib.




Bununla yanaşı, əlverişli, təhlükəsiz və "təmiz enerji" sisteminə keçidin vacib hissəsi kimi hidrogen sənayesinin inkişafını təmin edən amillərdən bəhs edilib. Azərbaycanın COP29-a sədrlik missiyasının yaşıl hidrogenin inkişafına da maliyyə dəstəyini təmin etməklə "yaşıl enerji" keçidinə töhfə verəcəyi bildirilib.

**"Respublika".**

# Baş Prokurorluq tərəfindən Sumqayıtda "Ekoloji təhlükəsizlik və yaşıl dünya" adlı işgüzar konfrans

**Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, aprelin 16-da Sumqayıtda "Ekoloji təhlükəsizlik və yaşıl dünya" adlı işgüzar konfrans keçirilib.**

Baş Prokurorluqdan verilən məlumatda bildirilir ki, konfrans iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib.

Daha sonra isə iştirakçılar "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində şəhərdə yerləşən Heydər Əliyev adına parkda ağaclar əkib.

Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Baş Prokurorluğun idarə rəisi Vüqar Əliyev müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dahi lider Heydər Əliyevin rəhbərliyi ilə ölkə ərazisində ekoloji mühitin sağlamlaşdırılması, ətraf mühitin mühafizəsi, eləcə də paytaxtda və respublikamızın bütün bölgələrində yaşıllaşdırma işinə xüsusi önəm verildiyini qeyd edib.





Konfrans zamanı çıxış edən Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfə verdiyini, aparılan kompleks tədbirlərin Sumqayıt şəhəri ərazisində də davam etdirildiyini qeyd edib.

Dahi lider Heydər Əliyevin ekoloji siyasəti barədə danışan Sumqayıt şəhər prokuroru Mürvət Həsənov uğurlu siyasətin bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirildiyini bildirib.

Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxış zamanı prokurorluq orqanları tərəfindən digər dövlət qurumları ilə birgə respublika ərazisində ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində kompleks işlərin həyata keçirildiyini vurğulayıb.

Konfransda, həmçinin, Ombudsman Aparatının sektor müdiri Müqalib Mahmudov, aqrar elmlər üzrə fəlsəfə doktoru Tünzalə Babayeva və başqaları aktual mövzular üzrə çıxış edib.

Daha sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və media arasında "Yaşıl dünya naminə" səmərəli müzakirələr aparılıb, təkliflər ətrafında fikir mübadiləsi aparılıb.

**"Respublika".**

**"Hökumət buludu"nun (G-cloud) yaradılması və bulud xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 3 iyun tarixli Fərmanının icrası davam etdirilir. Dövlət qurumlarının informasiya sistemlərinin və ehtiyatlarının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan "AzInTelecom" MMC-yə məxsus Bakı və Yevlax Data mərkəzlərinə tam və ya qismən miqrasiyası həyata keçirilir.**




Nazirliyin mətbuat xidmətinin verdiyi məlumatda bildirilir ki, daha əvvəl informasiya sistemlərini "Hökumət buludu"na qismən köçürmüş İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) artıq miqrasiya prosesini tam olaraq yekunlaşdırıb. Mərkəz "Hökumət buludu"na miqrasiya çərçivəsində "AzInTelecom" MMC-nin təqdim etdiyi Virtual server - IaaS (İnfrastructure-as-a-Service) virtual server xidmətini əldə edib. İİTKM informasiya sistemlərini Bakı Data Mərkəzində yerləşdirməklə kritik sistemlərinin yüksək əlçatanlığını təmin edib.

Eyni zamanda İİTKM məlumatların təhlükəsiz saxlanması məqsədilə Rezervlənmə - BaaS (Backup-as-a-Service) bulud xidmətindən də yararlanıb. "AzInTelecom" bu xidmət daxilində təqdim edilən funksionallıqları daha çevik və sadə formada idarə etmələri üçün İİTKM mütəxəssislərini "Veeam" platforması ilə təmin edib.

**"Respublika".**




# Zəngəzur dəhlizi açılmalıdır



(əvvəli 1-ci səhifədə)

Azərbaycan Prezidenti dəfələrlə Ermənistanın yeni reallıqları qəbul etməli olduğunu, eyni zamanda rəsmi Bakının Zəngəzur dəhlizinin açılmasına nail olacağını qətiyyətlə vurğulayıb. İrəvan isə kommunikasiyaların bərpası, yeni dəhlizin yaradılması ilə əlaqədar heç bir müsbət addım atmaq niyyətində deyil, əksinə prosesi ləngitməyə, müxtəlif bəhanələr irəli sürməklə süni gündəm formalaşdırmağa çalışır. Bütün bunlara baxmayaraq, Azərbaycan Zəngəzur dəhlizini reallığa çevirməkdə israrlıdır. Xüsusi vurğulamaq lazımdır ki, dəhliz həm regional, həm də beynəlxalq aləmdə mühüm əhəmiyyətə malikdir. Bəzi analitiklərin fikrincə, Zəngəzur dəhlizinin açılması Çinin iqtisadiyyatına da müsbət təsir edəcək. Bu layihə, eyni zamanda regional və beynəlxalq yükdaşımalarda əsas "həlqə" statusunu qazanacaq.

Bu gün Azərbaycan Ermənistan istisna olmaqla, bütün region dövlətləri ilə ikitərəfli və çoxtərəfli platformalarda uğurla əməkdaşlıq edir. Ermənistan da bu platformalarda təmsil olunmaq istəyirsə üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidir. Yeri gəlmişkən, Zəngəzur dəhlizinin açılmasının hüquqi bazasını 10 noyabr 2020-ci tarixində Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanatın 9-cu bəndi və 2021-ci il 11 yanvar tarixində Moskvada imzalanmış 4 bəndlik bəyanat təşkil edir. Sonuncu bəyanatda dəhlizin bərpasının 2021-ci ilin 1 mart tarixindən etibarən reallaşacağı qeyd olunurdu. Məhz həmin bəyanatlar və qəbul edilən sənədlər Zəngəzur dəhlizinin beynəlxalq səviyyədə legitimliyi üçün siyasi, hüquqi cəhətdən əsas yaradıb. Əfsuslar olsun ki, Nikol Paşinyanın bu məsələdə göstərdiyi destruktiv mövqe, eyni zamanda prosesə üçüncü tərəflərin müdaxiləsi Zəngəzur dəhlizinin açılmasına əngəl törədir.

Bir məqamı da qeyd edək ki, bu gün sözügedən layihənin reallaşmasından Ermənistanla yanaşı, İran da narahatdır. Rəsmi Tehran iddia edir ki, Zəngəzur dəhlizi açılarsa İran-Ermənistan sərhədi aradan qalxacaq, İranın Avropa ilə bağlantısı kəsiləcək. Bununla yanaşı, rəsmi Tehran hesab edir ki, Zəngəzur dəhlizi açılarsa İran Azərbaycanı Naxçıvana bağlayan tranzit ölkə olma özəlliyini itirəcək. Dəhlizin reallaşması fonunda İrana ehtiyac olmadan Bakı ilə Naxçıvanı bir-birinə bağlamaq mümkün olduğu kimi, türkmən qazının Azərbaycan üzərindən Avropaya daşınmasına da qarşısı açılacaq. Sözsüz ki, İranın Cənubi Qafqazdan çıxarılacağı, eləcə də ölkənin "Bir kəmər, bir yol" ilə Çindən Avropaya və Asiyaya gedən yollardan təcrid olunacağı barədə düşüncələri absurddur. Zəngəzur dəhlizinin açılması region ölkələri arasında ticari-iqtisadi əlaqələrə də müsbət təsir göstərəcək. İlk olaraq Türkiyə əsas iqtisadi tərəfdaşlarından olan Azərbaycana quru yolu ilə birbaşa çıxış əldə edəcək. Layihə iki dövlət arasında turizm və iqtisadi sahədə qarşılıqlı əlaqələrin inkişafına da töhfə verəcək. Zəngəzur dəhlizi Türkiyə üçün Mərkəzi Asiyaya qapı rolunu da oynayacaq, Rəsmi Ankaranın türk dünyası ilə iqtisadi əlaqələrini gücləndirməsinə imkan verəcək. Hazırda qardaş ölkə Türkiyə Qars-Naxçıvan dəmir yolu layihəsi üzərində iş aparır və həmin layihə Naxçıvanla Türkiyəni birləşdirəcək. Növbəti mərhələdə isə dəmir yolunun Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın qərb bölgələri ilə birləşdirilməsi Bakı ilə Ankara arasında ticarət əlaqələrinin inkişafına təkan verəcək.

Bütün bunlar Zəngəzur dəhlizinin açılmasının vacibliyini göstərir. Ermənistan mövcud reallıqları nəzərə alaraq addımlar atsa və üzərinə düşən öhdəlikləri yerinə yetirsə gələcəkdə bu layihədən faydalana bilər.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

# Mina probleminin həlli istiqamətində qətiyyətli səylər davam edir



(əvvəli 1-ci səhifədə)

Bu partlayıcılar çox vaxt ölümə, yaxud ağır xəsarətlərə səbəb olur. Fiziki zərərdən əlavə, mina əkinçilik və infrastrukturun inkişafında mane olur. Münaqişələr bitdikdən sonra belə, minalar illər boyu gizli təhlükə olaraq qalır. Təmizləmə prosesi isə həm ciddi maliyyə tələb edir, həm də çox vaxt aparır. Onların tapılması və çıxarılması xüsusi avadanlıq və təlim keçmiş işçi heyəti tələb edən əziyyətli prosesdir. Buna baxmayaraq, ölkəmizdə minatəmizləmə fəaliyyətində innovasiyalar, texnologiyalar, dronlar və süni intellektin imkanlarından istifadə olunur və hazırda geniş şəkildə tətbiq edilir. Minatəmizləmə Agentliyi (ANAMA) 2021-ci ildən dronlar və süni intellektin istifadəsi ilə tədqiqat işlərində faydalı nəticə verən "Uzaq Məsafədən (Havadan) Mina sahələrinin Tədqiqatı" (RAMS) sistemindən istifadə edir. Həmçinin ümumi maarifləndirmə çərçivəsində işğaldan azad edilmiş ərazilərdə məskunlaşan və yaxud kənd təsərrüfatı, sosial infrastruktur işlərində çalışan insanlar üçün mina təhlükəsinə dair ümumi maarifləndirmə tədbirləri reallaşdırılır, minatəmizləmə sahəsində ehtiyac duyulan təlimlər keçirilir.

ANAMA minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən aprelin 8-dən 14-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb. Ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 1, tank əleyhinə 5 mina və 725 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. 476.7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

Problemin həllində daha yaxşı nəticə üçün mina xəritələrinin verilməsi xüsusi əhəmiyyət daşıyır. Ermənistanın isə indiyə qədər təqdim etdiyi mina xəritələri etibarlı olmayıb. Bugünkü reallıq isə belədir: mina terroru davam edir. İnsan həyatının qorunmasına və ekoloji dayanıqlılığa məhəl qoymayan Ermənistanın hərəkətləri onun məkrli niyyətini açıq göstərir.

Minalar təkcə insanlara zərər vermir, həm də ekosistemləri pozur. Partlayışlar yaşayış yerlərini məhv edir, təbiətə zərər vurur, torpağı və suyu toksinlərlə çirkləndirir. Böyük əraziləri kənd təsərrüfatı üçün yararsız hala salaraq ərzaq təhlükəsizliyi problemini və iqtisadi qeyri-sabitliyi gücləndirir.

Ölkəmiz tərəfindən mina probleminin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması üçün xüsusi iş aparılır. Belə ki, ANAMA-nın məsul şəxsləri Xorvatiyanın Cavtat şəhərində keçirilən Mina Təhlükəsinə qarşı Mübarizə üzrə 20-ci beynəlxalq simpoziumda iştirak ediblər. Beynəlxalq tədbirdə Xorvatiyanın bir sıra dövlət qurumlarının rəsmiləri, müxtəlif ölkələrin minatəmizləmə qurumları, bu sahədə ixtisaslaşmış qeyri-hökumət və donor təşkilatların nümayəndələri iştirak ediblər. Simpozium çərçivəsində mina təhlükəsi mövzusunda texniki və idarəetmə problemlərinin həlli yolları, ən son elmi-praktiki nailiyyətlər və minalarla mübarizəyə dair təcrübə mübadiləsi aparılıb, o cümlədən müxtəlif şirkətlər tərəfindən istehsal olunan avadanlıqlar nümayiş olunub. ANAMA-nın nümayəndə heyətinin üzvləri tədbirdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mövcud mina və partlamamış hərbi sursat problemi, partlayıcı qurğularla kütləvi şəkildə çirklənmənin miqyası, mövcud problemin bərpa-quruculuq işlərinə, eləcə də keçmiş məcburi köçkünlərin qayıdışına yaratdığı maneələr barədə təqdimatla çıxış edib, bu sahədə beynəlxalq əməkdaşlığın və dəstəyin vacibliyini vurğulayıblar.

Mina təhlükəsinin aradan qaldırılması istiqamətində innovativ həllər və birgə səylər daha təhlükəsiz gələcək üçün ümid verir. Təmizlənmiş hər hektar torpaq və xilas edilən hər bir həyatla torpağın gizli təhlükələrdən azad olduğu dünyaya daha da yaxınlaşırıq.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**

# Çirkli pulları yuyan "milyarder"

(əvvəli 1-ci səhifədə)

Həmçinin bu vəsaitlərlə seçki proseslərinə müdaxilə edilməsi, saxta xəbərlərin yayılmasına yardım olunması da daxil olmaqla hər cür zərərli fəaliyyət həyata keçirilir. Bu pulların yuyulmasını isə ilk dəfə amerikalı soyğunçu Al Kapone həyata keçirib. O, qeyri-leqal yollarla qazandığı pulları çoxlu sayda camaşırxana açaraq "yuyub" və bu gəlirin həmin camaşırxanalardan əldə olunduğunu göstərib. Buna görə də həmin anlayış elə "çirkli pulların yuyulması" kimi tarixə düşüb.

Görünür indi də erməni milyarderin camaşırxanası ifşa olunub. Belə ki, Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Hesabatı Layihəsinin (OCCRP) R.Vardanyanın fəaliyyətinə dair 2019-cu ildə hazırladığı "The Troika Landromat" hesabat onun "zənginlik mənbəyi" haqda geniş məlumat verir. Hesabatda Ruben Vardanyanın iştirakı ilə nəhəng ofşor (vergidən tamamilə azad olunmuş və nəzarəti zəif olan zonalar) şəbəkəsinin milyardlarla pul vəsaitlərinin dövriyyəsini Rusiya Federasiyasına məxsus banklar üzərindən necə həyata keçirməsini ifşa edən faktlar aşkara çıxıb. Bu cinayət şəbəkəsinin üzvləri isə nə təsadüfdürsə, iki erməni - Ruben Vardanyanla Armen Ustyandır. Hesabatda Ustyanın Moskvada mənzillərin təmir edilməsi biznesinə başlamazdan əvvəl öz vətənində həyat yoldaşı və valideynləri ilə eyni mənzildə yaşayan mövsümi inşaat işçisi olduğu bildirilir. 34 yaşlı erməni heç bir zaman investisiya bankiri olmayıb. Lakin Armendən fərqli olaraq Vardanyan haqqında deyilir: "Vardanyan bir vaxtlar ölkənin ən böyük özəl investisiya bankı olan "Troika Dialoq"a rəhbərlik edən zəngin rusiyalı bankirdir. Onun barəsində Davosda keçirilən Dünya İqtisadi Forumunda danışılıb, vətəni Ermənistan üçün xeyriyyəçilik layihələrinə on milyonlarla dollar xərcləyib". Buradan da Rusiyada yaşayan və anti-Azərbaycan şüarları ilə çıxış edən rəsmilərin gəlir mənbəyi bəlli olur. Ermənistana "ton"la pul göndərməsi faktı isə olduqca maraqlıdır. Çünki bu gün Qərb qonşumuzda ciddi inkişaf nəzərə çarpmır. Göndərilən pullarla bu gün haylar yer üzündəki cənnətdə yaşamalı idilər. Belə deyə bilərik ki, erməni siyasilər həmin vəsaitləri də xalqlarının rifahı üçün istifadə etmək yerinə, bədnam əməllərə sərf ediblər. Əslində bu, heç də təəccüblü deyil. Onlar üçün əsl vacib məqam xaricdə "güclü adamlar"ının olmasıdır.

Xarici turistlərin sosial şəbəkələrdə yayımladıqları videolara nəzər salanda görünür ki, İrəvanın qismən də olsa müasir standartlara uyğunlaşdırılmış hissəsi balaca bir meydançadan ibarətdir. Bütün qonaqlar həmin bölgəni gəzib kifayətlənməli olurlar. Belə ki, xarici qüvvələrə pul yatırdıqları və silah-sursat aldıqlarına görə ölkənin inkişafı üçün xərcləməyə əllərində heç nə qalmayıb.

Hesabatda Ruben Vardanyanla Armen Ustyanın hər ikisinin erməni mənşəli olmalarından başqa ortaq cəhətlərinin olmadığı qeyd edilib. Lakin sənədlər bunun əksini söyləyir. Necə olursa, Ustyanın öz şəxsi imzası ilə təsdiqlədiyi sənədlərin sonu gəlib "Troika"da dayanır. Həm də onun adı və pasportunun surəti "Troika"nın sistemində mühüm rol oynamış ofşor şirkətlərdən birinə aid bank sənədlərində də aşkar edilib. Faktlara əsasən, həmin şirkət 2006-cı ildən 2013-cü ilin əvvəlinə kimi fəaliyyət göstərərək mürəkkəb maliyyə şəbəkəsi yaradan azı 75 şirkətdən biri olub. Bu zaman kə-



siyində "Troika" 4,6 milyard ABŞ dolları vəsaitin sistemə daxil olmasına, həm də 4,8 milyard dollar vəsaitin sistem vasitəsilə müəyyən istiqamətlərə yönəldilməsinə şərait yaradıb. Bu əməliyyatlarda böyük Qərb bankları xüsusi yer alıb. Adları qeyd edilən banklar əsasən Citigroup Inc., Raiffeisen və Deutsche Bankdır. Məsələ ilə bağlı həmin banklara sorğu göndərilsə də heç bir cavab alınmayıb. Deutsche Bank isə "Troika" müştəri əməliyyatları haqqında məlumatlara "məhdud giriş" olduğunu əsas gətirərək hüquqi tələblərə görə konkret bizneslər haqqında şərh verə bilmədiyini qeyd edib. Bunlardan başqa, həmin sistemdə olan şirkətlər nağd pulun mənbəyini gizlətmək məqsədilə 8,8 milyard dollar dəyərində daxili əməliyyatlar həyata keçirib. Qeyd edək ki, "Troika Dialoq"un gəliri 2006-2010-cu illər arasında 2 trilyon rublu (valyuta dəyişkənliyindən asılı olaraq 63-85 milyard dollar) ötüb. Bank 2012-ci ilə qədər ölkənin ən böyük dövlət kreditoru olan "Sberbank" tərəfindən satın alınana qədər Vardanyanın rəhbərliyi altında fəaliyyət göstərib.

Həmin bu illər ərzində Vardanyan "Troika"nın prezidenti, baş icraçı direktoru və əsas partnyoru idi. Bir tərəfdən də Rusiya kapitalizminin Qərb dostu kimi tanınıb. Vardanyanın idarə etdiyi sistemdə böyük əməliyyatların çoxu uydurma ticarət sövdələşmələri əsasında həyata keçirilib. Saxta invoyslar "ərzaq malları", "metal mallar", "fakturalar" və "avtomobil hissələri" kimi müxtəlif adlarla rəsmiləşdirilib. Qeyd edək ki, bu məlumatlara daxil olan invoyslar proksilər (həqiqi sahibin gizlədilməsi məqsədilə müvəkkil edilmiş digər şəxslər) tərəfindən təsdiq edilərək *Troika.ru* elektron poçt ünvanlarından göndərilib. Bütövlükdə bu məlumatlar 238.000 şirkət və insan tərəfindən həyata keçirilən 1,3 milyondan çox bank əməliyyatlarından, eləcə də minlərlə elektron məktub, müqavilə və şirkət qeydiyyatı formalarından əldə edilib.

Lakin məlum olmuş faktlarla bağlı müsahibəsində yalançı milyarder ona məxsus olan bankda qaydalardan kənar hər hansı əməliyyatın həyata keçirilmədiyini, həmin dövrdə digər investisiya bankları kimi fəaliyyət göstərdiyini bildirib. O, bütün olanları boynundan atmaq üçün deyib ki, ona məxsus olan bankın öz müştərilərinə göstərdiyi geniş sahələri əhatə edən xidmətlər üzrə hər incə detala nəzarət etmək imkanı ola bilməzdi.

Maraqlı məqam odur ki, qeyd olunan pozuntularla bağlı Vardanyanın nə vaxtsa hakimiyyət orqanları tərəfindən təqibə məruz qaldığı və ya ittiham olunduğuna dair bir sübut yoxdur. Şəxsən özünün imzasına həmin bank əməliyyatları üzrə yalnız "Troika" pulyuma maşınına daxil olan şirkətə kreditin ayrılması ilə bağlı sənəddə rast gəlinir. Bu da milyarder kimi özünü qələmə verən ermənin hakimiyyət orqanları ilə əlbir olduğunu sübut edir.

Bu sistem sadəcə çirkli pulların yuyulması üçün deyil, həm də gizli investisiya vasitəsi, rüşvət, vergidən yayınma sxemidir. "Camaşırxana"nın daimi müştəriləri bu sistemdən Böyük Britaniya, İspaniya və Monteneqroda əmlak, lüks yaxtalar və sənət əsərləri, dünya çempionatının biletlərini almaq, övladlarının nüfuzlu Qərb məktəblərində oxumaları üçün təhsil haqqını ödəmək məqsədilə istifadə edirdilər. Odur ki, Vardanyan da öz "American Express" kartını doldurub, həyat yoldaşına və ailəsinə məxsus hesablara külli miqdarda pul köçürüb, üç övladını Böyük Britaniyanın nüfuzlu təhsil ocaqlarında oxudub.

**Töhfə SƏMƏDOVA,**
**"Respublika".**

RƏYLƏR, MÜLAHİZƏLƏR

# Bulanıq suda balıq tutmağa çalışanlar

**Bu gün dünyada çox ciddi bir xaotik proseslər yaşanır. Dünyanın demək olar ki, əksər bölgələrində hərbi toqquşmalar, siyasi-hərbi kataklizmlər müşahidə olunur. Beynəlxalq hüquq demək olar ki, işləmir və sabit bir bölgə axtarıb tapmaq özü müşkül məsələyə çevrilib. Bu reallıq fonunda Azərbaycanın həm şimal, həm də cənub qonşuluğunda çox ciddi hərbi-siyasi proseslər gedir. Rusiya-Ukrayna müharibəsi getdikcə daha da kəskinləşir. Ölkənin cənubunda İran İslam Respublikası da İsraillə müharibə vəziyyətindədir və bu müharibənin nə qədər davam edəcəyi bu gərginliyin hansı fəlakətlər gətirəcəyini proqnozlaşdırmaq çətindir. Düzdür, hələlik strateji bir pauza hökm sürür. Lakin bu, nə qədər çəkəcək və İsrailin cavab zərbələri nə vaxt olacaq kimi suallar gündəmi zəbt edir.**



**Elman NƏSİROV,**
**Milli Məclisin deputatı.**

Mövcud reallıqlar fonunda Azərbaycan sabit dövlətdir. Azərbaycanda səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyi var. Lakin, bu vəziyyətlə anti-Azərbaycan dairələr barışmaq istəmirlər. Bu xaricdə olan qara qüvvələrin də yuxusuna haram qatır və onlar çalışırlar ki, Azərbaycanı da bir toqquşma ocağına çevirsinlər. Bu baxımdan sapı özümüzdən olan baltalardan da, milli dönüklərdən də istifadə edirlər. Və eyni məntiqlə söyləmək olar ki, uzun müddətdir fəaliyyətsiz dayanan Azərbaycan Xalq Cəbhəsi Partiyası və Milli Şura indi oyanıb xaricdəki sahiblərinin sifarişi əsasında ölkəmizdə gərginlik yaratmaq istəyirlər. Aprel ayının 21-nə mitinq təyin ediblər və seçdikləri ərazilər də şəhərin mərkəzi yerləridir. İnsanların kompakt cəmləşdiyi ərazilərdən söhbət gedir. Belə bir mitinqin keçirilməsi ilk növbədə insanların təhlükəsizliyi və asayişinin qorunmasında ciddi problemlər yarada bilər. Eyni zamanda insanların istirahət hüququnun pozulması anlamına gəlir. Bu baxımdan həmin pozucu dairələr çalışırlar ki, ətrafımızdakı gərginlik ocaqlarını Azərbaycana da transfer etsinlər və ölkəmizdə də hərc-mərclik yaransın. Necə ki, özləri 1992-1993-cü illərdə xaos dövründə yaşadılar və onun səbəbkarı oldular. İndi həmin dövrü yenidən qaytarmaq istəyirlər və xülyalarla, illüziyalarla yaşayırlar. Siyasi məhbusların azadlığı şüarı ilə çıxış edirlər. Anlamırlar ki, Azərbaycanda siyasi məhbus yoxdur, ola da bilməz, konkret cinayət əməlinə görə həbs edilmiş və ya saxlanılmış şəxslər var. Ona görə də siyasi məhbus ifadəsi qəbuledilməzdir. Bu, siyasi manipulyasiyadır və ölkəmizə qarşı təzyiq elementlərindən biri kimi qiymətləndirilə bilər.

Sərhədlərin açılmasından danışanlar bilməlidirlər ki, onun bağlı olması ilk növbədə təhlükəsizlik məsələləri ilə əlaqədardır. Bu gün həm şimal, həm də cənub qonşumuzda yaşanan proseslər onu göstərir ki, bu olduqca doğru qərardır və heç bir dövlət istəməz ki, sərhədləri bağlı qalsın. Çünki bu müəyyən iqtisadi, sosial problemlər yaradır. Amma Azərbaycan üçün əsas məsələ öz vətəndaşının təhlükəsizliyidir və bu məntiqdən çıxış edərək sərhədlərimiz hələ ki, bağlı vəziyyətdədir. İstəyirlər ki, bu faktın mahiyyətini dəyişərək özlərini cəmiyyətə sırısınlar.

Amma xalq onları yaxşı tanıyır, kimliyini çox gözəl bilir. Həmin şəxslərin İkinci Qarabağ müharibəsində davranışını da xalqımız yaddan çıxarmayıb. O zaman da Azərbaycan əleyhinə mübarizə aparan beynəlxalq siyasi dairələrin fəaliyyətini tənqid edən müraciətlərdə, sənədlərdə onlar iştirak etmədilər, kənarda qaldılar. Çünki sözügedən ayırıcı xətlər yaradan qüvvələrin zehinlərində "Azərbaycan xalqı üçün nə pisdirsə, onlar üçün yaxşıdır, nə yaxşıdırsa, onlar üçün pisdir" fəlsəfəsi işləyir. Xalqımız da bunları görür və bu səbəbdən də onlara heç bir etimad yoxdur. Bu qüvvələr iradəli vətəndaşlarımız tərəfindən hər zaman boykot edilib. Onlar bir siyasi yalquzaq həyatı yaşayırlar. İndi də çalışırlar ki, bulanıq suda balıq tutsunlar və regionumuzdakı gərginlikdən istifadə edib Azərbaycan daxilində də çaxnaşma yaratsınlar. Bu illüziyadır, reallaşma əmsalı sıfıra bərabərdir. Qeyd etdiyim kimi, Azərbaycan güclü dövlətdir, onun güclü lideri, dəmir yumruq kimi birləşmiş xalqı var. Xalq öz Prezidenti ətrafında monolit birlik nümayiş etdirir. Bu reallıqlar fonunda onların arzuları heç bir halda gerçəkləşə bilməz. ■

# Paşinyan Qərbdən nə istəyir?..

*Qafqazda Qərbin təsir dairəsini ciddcəhdlə artırmağa çalışan N.Paşinyan bu gün Avropanın bütün imkanlarından hətta xalqı əleyhinə belə istifadə edir. Çünki Paşinyanın Qərbə borclu olduğu məlum məsələdir. Əgər 2018-ci il aprelin əvvəlinə nəzər salsaq, o zaman* ***"Paşinyan Qərbdən nə istəyir?"*** *deyil, tam əksinə* ***"Qərb Paşinyandan nə istəyir?"*** *sualını verə bilərik.*

1989-cu ildə keçmiş Çexoslovakiyada baş vermiş, tarixə "məxməri inqilab" adı ilə düşmüş antisovet müqavimət hərəkatı, 2018-ci ilin aprel-may aylarında köhnə adla, lakin yeni formada, böyük maliyyə planları əsasında Ermənistanda həyata keçirildi.

Serjik Sarkisyan və Robert Köçəryanın rəhbərliyi dövründə Qərbə inteqrasiya siyasəti olduqca məhdud, hətta durğun bir vəziyyətdə idi.

Avropa Şərqdə anti-Qərb meyilli ölkələrin gözünü qorxutmaq üçün "inqilab" adı altında separatist hərəkatlara başladı. Buna "ərəb bahan"nı, "narıncı inqilab"ı nümunə göstərmək olar. Ermənistandakı 2018-ci ilin "məxməri inqilab"ını məhz "narıncı inqilab"ın davamı saymaq olar.

Belə bir vəziyyətdə Qərb dövlətləri və siyasi investorlar üçün Şərqdə ələ ala biləcəkləri fiqurlar lazım idi. Heç şübhəsiz ki, siyasi fəaliyyəti o qədər də geniş olmayan, lakin parlament və xalq arasında problemləri qaldıran bir jurnalist onların tələblərinə cavab verirdi. Qərbin məqsədi güclü şəxsiyyətləri deyil, istifadə edə biləcəklərini rəhbərliyə gətirmək idi. Təməlindən çürümüş, daxili aparatı saxtakarlıqla və yalan üzərində qurulmuş Sarkisyan hökuməti yeni inqilab dalğasına hazır deyildi. Bilavasitə "narıncı inqilab" köhnə və bürokratik postsovet aparatlarını aradan qaldırmaq, çağdaş liberal təsirlər altında dəyişikliklərə əsaslanırdı. Paşinyan belə bir vəziyyətdə arxasında duran siyasi investorların ondan nə tələb etdiklərini yaxşı bilirdi. İqtisadi problemlər fonunda Ermənistanın kənar bölgələrində xalqın ayağa qalxmasına vasitəçi olan Paşinyan, Qərbin ona verdiyi "fərd hüquqları", "demokratik-liberal azadlıqlar" bayrağı altında aşağı təbəqə ilə yanaşı, intellektli təbəqəni əlinə almağı bacarmışdı. Həmin dövrdə Marsel, Berlin, London, Çikaqo və Torontodakı erməni diasporları heç şübhəsiz, onları maliyyələşdirən qüvvələrin birbaşa əmri ilə Sarkisyana qarşı etiraz dalğasına qoşuldular. Qoşulmaya da bilməzdilər, necə də olsa həm Paşinyan, həm də bu diasporlar öz güclərini vahid bir mərkəzdən alırdılar. Təzyiqlər, küçə döyüşləri, vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalan hökumət və prezident Serjik Sarkisyan üsyançılarla danışıqlar aparmaq istəsə də, Paşinyan heç bir halda kompromisə getmədi. Gedə də bilməzdi, çünki tapşırıq aldığı Soros kimi qüvvələr onu kompromisə getmək üçün maliyyələşdirmirdi. Belə olan halda rəsmi İrəvan çökdü və prezident Serjik Sarkisyan, baş nazir Karen Karapetyan daxil olmaqla bütün hökumət nümayəndələri istefa vermək məcburiyyətində qaldı. Bununla da Qərb öz istəyinə çatdı və rəhbərliyə öz namizədini gətirdi.



N.Paşinyan baş nazir postuna oturan kimi ilk işi Qərbə reinteqrasiya siyasətini gücləndirmək oldu. Siyasətin əsas xəttinə çevrilən liberal-milli prinsiplər, nazirliklər və nümayəndəliklər üzərində bilavasitə diasporların Ermənistan dövləti qarşısındakı öhdəliyini minimum həddə endirdi. Təbii ki, diasporlar boşuna Paşinyanın arxasında deyildi, maksimum dərəcədə Sarkisyan hakimiyyəti təsirindən azad olub, istədiyi iyrənclikləri, Qərb xəyallarını vahid bir mərkəzdən icazəsiz, sərbəst həyata keçirmək istəyirdilər. Paşinyan KTMT-nin sədri olmasına baxmayaraq, Ermənistanın ümummilli formatda Şərq maraqlarından imtina etməsi, tamamilə Qərbə meyillənməsi fonunda başçılıq etdiyi təşkilata üzv ölkələrlə olduqca soyuq münasibətlər formalaşdırdı. Paşinyanın KTMT, bilavasitə Rusiya ilə münasibətlərinin soyuqlaşmasının pik həddi isə Haaqa Daimi Arbitraj məhkəməsinin Rusiya Prezidenti Vladimir Putin haqqında çıxardığı həbs qərarının Ermənistan Parlamentində müzakirə və ratifikasiya edilməsi oldu.

Rəsmi İrəvan və bütövlükdə Ermənistan üçün gələcək günlər o qədər də aydın görünmür. Paşinyanın hakimiyyətə gəldiyi ilk illərdə Azərbaycanı hədələyərək, yeni torpaqlar vədi altında çığır-bağır salmaqla xalqının gözündə qəhrəmana çevrilmək xəyallarını cənab Prezidentimizin rəhbərliyi ilə Vətən müharibəsində əldə etdiyimiz şanlı Zəfərimiz puç etdi. Paşinyan hazırda Rusiyanın iqtisadi təsiri, Qərbin regional prinsipləri daxilində sıxışmış və çarəsiz şəkildə, bir vaxt ona ehtiyac duyan Avropanın qapılarını döyməkdən başqa heç nə əldə edə bilmir.

**Elvin CƏFƏROV.**



Günün siyasi nəbzi






# "Sabitlik bütün inkişafın əsasıdır"

**Dünya çətin dövrdən keçir. Əvvəlcə koronavirus pandemiyası ilə sarsılan, tarazlığı pozulan planetimiz indi də müharibələr ilə çalxalanır. Avropanı ənginə alan Rusiya-Ukrayna savaşı bitməmiş Yaxın Şərqdə gərginlik yüksəldi, İsrail ilə Həmas arasında qanlı qarşıdurmalar başlandı. Amma dünyada davam edən müharibələr təkcə bunlar deyil. Lokal, regional xarakterli münaqişələr barədə də demək olar ki, hər gün xəbərlər yayılır. Afrika ölkələrində Fransa əleyhinə başlayan etiraz dalğaları da qlobal sabitliyin pozulmasında böyük rol oynayır. Bunların fonunda əslində rəsmi səviyyədə elan edilməsə də üçüncü dünya müharibəsi gedir, deyə bilərik. Bunu anlamaq üçün sübutlara, dərin təhlillərə gərək yoxdur. Faktiki olaraq beynəlxalq nizam yenidən qurulur, ölkələrin sərhədləri dəyişir, dünyada ayırıcı xətlər daha qabarıq şəkildə özünü göstərir.**




Bu mərhələdə terrorçuluğun coğrafiyası genişlənir və məzmunu daha da aqressivləşir. Son vaxtlarda ayrı-ayrı siyasi dairələrin, hətta bəzi hallarda dövlətlərin belə terrorizmə dəstək verdiyinin şahidi oluruq. Buna görə də müxtəlif beynəlxalq qurumlar bu sahədə aktiv işlərə başlayıb. Son olaraq nüfuzlu təşkilatların istinad etdiyi "Global Terrorism Index" 2024-cü il üçün dövlətlərin terror təhlükəsinə görə növbəti reytinq sıralamasını açıqlayıb. Ərazisində terror təhlükəsi ən yüksək olan ölkələr arasında ilk sıralarda Burkina Faso, İsrail, Mali, Pakistan, Suriya, Əfqanıstan yer tutur. Dövlətimiz isə "0" indekslə Danimarka, Finlandiya, Qətər kimi ölkələrlə birgə sonuncu, yəni 89-cu yerdədir. Bununla da ölkəmizin qlobal miqyasda terrorla bağlı ən təhlükəsiz ölkələrdən biri olduğu təsdiqlənib. Əslində, bu reallıq daha öncə də etiraf edilmişdi. Belə ki, Avropa Şurasının Çirkli Pulların Yuyulmasına və Terrorizmin Maliyyələşdirilməsinə qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) son hesabatında da bildirilmişdi ki, rəsmi Bakı terrorçuluğun maliyyələşdirilməsinə qarşı effektiv mübarizə aparır. Bunlar hökumətimizin apardığı islahatların, neqativ halların minimuma endirilməsi istiqamətində görülən işlərin nəticəsidir. Atılan addımlar onu göstərir ki, ölkəmiz beynəlxalq standartları dəstəkləmək, hüquqi və institusional çərçivələri gücləndirməklə qlobal təhlükəsizliyə töhfə verir.

Mürəkkəb geosiyasi məkanda yerləşməsinə baxmayaraq, həyata keçirilən uğurlu dövlət siyasəti nəticəsində Azərbaycan turizm üçün cəlbedici ölkə, həmçinin etibarlı tərəfdaşdır. Eyni zamanda ölkəmiz müxtəlif sivilizasiyalar və mədəniyyətlər arasında dialoq məkanına, beynəlxalq əhəmiyyətli məsələlərin həllini tapdığı unikal platformaya çevrilir. Bunun da kökündə daxili sabitlik, təhlükəsizlik amili dayanır. Dövlət başçımız İlham Əliyev 2018-ci ildəki andiçmə mərasimdə də bu məsələyə toxunaraq bildirib ki, sabitlik pozulanda inkişafdan söhbət gedə bilməz: "Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir".

Göründüyü kimi, Azərbaycanın bu məsələdə qətiyyətli mövqeyi var. Lakin hazırda ölkəmizin iradəsinə qarşı çıxmaq cəhdlərini görürük. Belə ki, hazırda Cənubi Qafqazın döyüş arenasına çevrilməsi planları işə salınıb. Bu məsələdə Ermənistandan maşa kimi istifadə edilir. İrəvanda fəaliyyətə başlayan Avropa İttifaqının missiyası, aprelində 5-də Brüsseldə keçirilən üçtərəfli görüş də Qərbin merkantil maraqlarının nümunəsidir. Bununla belə rəsmi Bakı regionumuzda həyata keçirilməyə çalışılan məkrli planlara qarşı çıxır, hər cəhdlə sabitliyin pozulmasının qarşısını alır. Yəni Azərbaycan bölgədə sabitləşdirici faktor kimi çıxış edir. Eyni zamanda qlobal qarşıdurmalar fonunda dövlətimiz iqtisadi, hərbi qüdrətini artırır.

"Sabitlik bütün inkişafın əsasıdır" söyləyən ulu öndər Heydər Əliyevin arzusu artıq reallığa çevrilib. Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan bundan sonra da qlobal ziddiyyətlər burulğanında sabitlik adası imicini daha da möhkəmləndirəcək.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**

# Ölkəmiz regionda təhlükəsizliyi və əmin-amanlığı təşviq edir



**(əvvəli 1-ci səhifədə)**

Uzun illər Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistanın təcavüzkarlığı nəticəsində Cənubi Qafqazda münaqişələr səngimir, regionda qeyri-sabitlik hökm sürürdü. Ərazilərinin 20 faizdən çox hissəsi işğal olunan Azərbaycan münaqişənin sülh yolu ilə həllinə səy göstərsə də, qarşı tərəfin destruktiv mövqeyi, eyni zamanda havadarlarının dəstəyi ilə Qarabağ münaqişəsi 30 il davam etdi. 2020-ci il sentyabr ayının 27-də başlanan İkinci Qarabağ müharibəsi və ötən il keçirilən antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpası ilə regionda təhlükəsizliyin, əmin-amanlığın bərqərar olması üçün əlverişli zəmin yarandı. 44 günlük müharibədə qalib tərəf olsa da, düşmən ölkəyə sülh təklif edən Azərbaycan 23 saatlıq antiterror tədbirlərindən sonra Qarabağda yaşayan erməni əsilli vətəndaşlarının ölkəmizin qanunları altında yaşaya biləcəklərini, azərbaycanlılarla eyni hüquqa malik olacaqlarını bildirdi, onlara inteqrasiya üçün hər cür imkan və şərait yaradıldı. Lokal xarakterli antiterror tədbirlərindən sonra xalqa müraciətində ölkə başçımız bu barədə demişdir: "İndi isə əminəm ki, bölgəmizdə yeni vəziyyətin yaranması labüddür. Çünki kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də nəhayət rahat nəfəs ala bilər. Bunu mən demişəm və bir daha demək istəyirəm, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır... Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır".

Yalnız yerləşdiyi regionda deyil, bütün dünyada sülhün təminatçısı kimi tanınan Azərbaycan üçün öz vətəndaşlarının təhlükəsizliyi hər zaman prioritet olub və dövlətimiz qonşu ölkələrlə mehriban şəraitdə birgəyaşayışa böyük önəm verib. Humanist ideyalara sadiq qalan Azərbaycanın ərazilərini işğal edib, vətəndaşlarını soyqırımına, deportasiyalara məruz qoyan düşmən ölkəyə sülh təklif etməsi də məhz bu amildən qaynaqlanır. Ölkəmizin regionda sülhün təmin olunması naminə atdığı addımlara məhəl qoymayan Ermənistan isə hələ də manipulyasiyadan əl çəkmir, sülh prosesini məqsədli şəkildə ləngidir. Qərb blokunun Cənubi Qafqaza müdaxilə cəhdi, şirnikləndirilən Ermənistan onların fitvasına getməklə müharibəyə, münaqişəyə sürüklənir.

Havadarlarına bel bağlayan Hayastan regionun lider dövləti olan Azərbaycanın təklif etdiyi sülh sazişini imzalamaqla iki ölkə arasında münasibətləri normallaşdırmaq əvəzinə, bəzi dövlətlərlə hərbi əməkdaşlığı genişləndirərək yeni müharibəyə hazırlaşır. Hər vəchlə sülh müqaviləsini imzalamaqdan yayınaraq təlimat aldığı Qərbin məkrli planlarını reallaşdırmasına rəvac verən Ermənistan regionda faciələrin baş verəcəyini anlamaq istəmir. Ölkəmizə qarşı beynəlxalq təsir mexanizmini gücləndirmək niyyəti ilə hər vasitəyə əl atan düşmən ölkə son aqibətinin necə olacağını dərk etmir. Və unudur ki, "əgər bizim təhlükəsizliyimizə azacıq da olsa təhdid görsək, bu təhdid harada, Ermənistan ərazisinin hansı dərinliyində olsa da, biz onu dərhal, sadəcə, məhv edəcəyik. Bunu hamı, ilk növbədə Ermənistan rəhbərliyi bilməli və başa düşməlidir", - sözləri Azərbaycanın dövlət başçısının qəti mövqeyini əks etdirir. Odur ki, havadarlarının yalan vədlərinə uyub regionda sabitliyi təhdid edən siyasət yürüdən Ermənistanın çıxış yolu yalnız sülh sazişinin imzalanmasından keçir. Əks təqdirdə, öz maraqları üçün onu hədəf seçən dövlətlərin "ipi üstünə odun yığan" Hayastan üçün gələcək heç də aydın görünmür. Çünki həm iqtisadi, həm hərbi cəhətdən, ən əsası isə ordunun mənəvi ruh yüksəkliyi baxımından üstün olan Azərbaycan regionda diktə edən tərəfdir və ölkəmizin daxili işlərinə heç bir ölkə qarışa bilməz. Müstəqil siyasət yürüdən Azərbaycan heç bir ölkənin ya istəyi, ya da təhriki ilə hərəkət etmir. Regional sabitliyin təmin olunmasını istəməyən, aranı qarışdırmaqla iki ölkə arasında münasibətləri gərgin saxlamağa çalışan Qərb bloku bunu çox yaxşı anladığından Ermənistanı əlindən buraxmaq istəmir. Lakin Cənubi Qafqazı Ermənistan vasitəsilə "qan çanağına" çevirmək, nəyin bahasına olursa-olsun bölgəyə yerləşmək və burada ölkəmizə qarşı koalisiya formalaşdıraraq regionda öz dominantlığını təmin etmək istəyən Qərb yeni təhlükə mənbəyi yaratmaq arzusunu həyata keçirə bilməyəcək. Çünki Azərbaycan regionda sülhü, əmin-amanlığı, təhlükəsizliyi təşviq edir və bunu qorumaq üçün qətiyyət göstərir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

# Qərbi Azərbaycan İcması professor Lemkinin adından sui-istifadə edilməsini sərt şəkildə qınayıb

**Son dövrlər "Soyqırımının önlənməsi üzrə Lemkin İnstitutu" adlı qurum davamlı olaraq Azərbaycanı hədəfə almaqdadır.**

Ermənistanda bir nəfər də azərbaycanlının qalmamasını, bu dövlətin Azərbaycan ərazisini işğal edib orada törətdiyi çoxsaylı soyqırımı aktlarını görməzdən gələn bu kontorun fəaliyyəti demək olar ki, ancaq və ancaq Azərbaycana qara yaxmaqdan ibarətdir.

Bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

Qeyd edilib ki, qurumun fəaliyyəti haqqında açıq mənbələrdə yayılmış məlumatları diqqətlə gözdən keçirdikdə bu uydurma qurumun canfəşanlığının əsl səbəbləri məlum olur. Terrorçuluğun maliyyələşdirilməsi ittihamı ilə Azərbaycanda istintaq altında olan fırıldaqçı Ruben Vardanyan və digər dələduz Nubar Afyan tərəfindən maliyyələşdirilən bu "institut" əslində muzdlu mirzələrdən ibarət yığıntıdır. Qurumun heyətində E.Poqosyan, L.Mirzoyan kimi erməni diasporunun radikal ünsürlərinin geniş təmsil olunması da təəccüb doğurmur.

Qərbi Azərbaycan İcması sözügedən dairələrin Azərbaycana böhtan atmalarını və bu iyrənc əməlləri üçün soyqırımına qarşı beynəlxalq mübarizənin formalaşmasında böyük rol oynamış professor Rafael Lemkinin (1900-1959) adından sui-istifadə edilməsini sərt şəkildə qınayır. İcma dövlətləri, beynəlxalq təşkilatları və vətəndaş cəmiyyətini radikal erməni millətçi dairələrinin bu cür dezinformasiya kampaniyalarına qarşı mübarizə aparmağa çağırır. ■

# Azərbaycanın sülh təşəbbüsünə Ermənistan əngəl törədir

**Son zamanlar Ermənistan ölkəmizə qarşı hərbi təxribatları artırıb. Azərbaycanla şərti sərhəddə atəşkəsi pozan Ermənistanın hansı qüvvələrin təhriki ilə bu cür yollara əl atması da hər kəsə bəllidir.**



Aprelin 5-də Brüsseldə baş tutan üçtərəfli görüşün regiona təsirsiz ötüşməyəcəyi məlum məsələ idi. Bunu gözləmək üçün çox vaxt lazım olmadı. Elə aprelin 5-də Azərbaycan Ordusunun müxtəlif istiqamətlərdə yerləşən bölmələri ümumilikdə 30 dəfə atəşə tutuldu. Təxribatlar isə hələ də davam edir. Aprelin 13-ü saat 08:30 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Tovuz rayonunun Koxanəbi yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atıcı silahlardan atəşə tutub. Buna cavab olaraq ordumuzun bölmələri adekvat tədbirlər görüb.

Burada diqqətçəkən ən vacib məqam həmin hərbi təxribatların ABŞ-Ermənistan-Avropa İttifaqı üçtərəfli görüşünün keçirildiyi gündən sonra baş verməsidir. Hadisələrin gedişindən də aydın olur ki, 44 günlük Vətən müharibəsində və ötən ilin sentyabrında darmadağın edilən Ermənistan orudusunu yenidən ruhlandıran Qərbdən gələn dəstəkdir. Hələ 5 aprel görüşündən əvvəl dövlət başçımız ABŞ Dövlət katibinə anti-Azərbaycan mahiyyəti daşıyan addımların regionda yeni təxribatlar törədilməsinə xidmət edəcəyini bildirib, o cümlədən Fransa tərəfindən də Ermənistanın silahlandırılması siyasətinin regionda silah yarışına rəvac verdiyini vurğulayıb. ABŞ rəsmisi Antoni Blinken 5 aprel görüşünün Azərbaycana qarşı olmadığını bildirsə də, bunun doğru olmadığı elə ilk gündən bəlli oldu.

Ermənistana dəstək göstərən ABŞ və Aİ rəsmilərinin görüşdən əvvəl dövlət başçımıza zəng etməsi isə ona işarədir ki, dünyanın siyasi mərkəz rəhbərləri Prezident İlham Əliyevin nüfuzuna hörmət bəsləyirlər. Çox güman ki, Ursula Fon der Lyayenin də Azərbaycan Lideri Prezident İlham Əliyevlə telefon danışığı Nikol Paşinyan üçün "soyuq duş" effekti yaradıb.

Ermənistanın Brüssel görüşünün "nəticəsi" olaraq yeni qarşıdurma istəyi Şərqi Avropa və Yaxın Şərqdə baş verən hadisələri Cənubi Qafqaza daşımaqdan ibarətdir. Xüsusilə Fransa bu işdə gərgin "əmək" sərf edir.

Azərbaycan isə hər zaman olduğu kimi, sülhün və sabitliyin tərəfdarıdır və hər hansısa mübahisəli məsələni danışıqlar masasında həll etməyi prioritet istiqamət olaraq görür. Torpaqlarının 30 ilə yaxın işğalı və bir milyona yaxın qaçqın və məcburi köçkün probleminin olmasına baxmayaraq, rəsmi Bakı bu amili heç vaxt müharibə aləti kimi istifadə etməyib. Yalnız 2020-ci ildə Ermənistanın yenidən hücum etməsinə cavab olaraq uğurlu əməliyyatlar aparılıb və öz torpaqlarını işğaldan azad edib. Azərbaycanın İkinci Qarabağ müharibəsində qalibiyyəti regiona sabitlik gətirib.

Ölkəmiz regionda sülhün təmin olunması istiqamətində təşəbbüslər göstərsə də, haylar davranışları ilə sülhə maraqlı olmadıqlarını göstərirlər. Sözügedən görüşdən öncə Ermənistanın Azərbaycanla şərti sərhədə ağır texnika və əsgər toplamağı deyilənlərin əyani sübutudur.

Lakin Ermənistan anlamalıdır ki, Fransanın diktəsilə etdiyi təxribatların onlara heç bir faydası olmayacaq. Və əgər gələcəkdə hər hansı bir müharibə olacaqsa, Fransa buna sadəcə seyirci kimi qalacaq. Necə ki, 44 günlük Vətən müharibəsi və antiterror tədbirlərində bu, belə olmuşdu. Fransanın İkinci Qarabağ müharibəsindən bəri atdığı addımlar Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasını ləngidir. Fransa dəfələrlə ölkəmizə qarşı beynəlxalq institutlar vasitəsilə təsir göstərməyə cəhd edib. Rəsmi Paris dəfələrlə Azərbaycan əleyhinə BMT Təhlükəsizlik Şurasında qətnamə qəbul edilməsinə təşəbbüs göstərsə də istəyinə nail ola bilməyib. Yalnız parlament səviyyəsində qərəzli sənədlər qəbul etməklə kifayətlənib.

Makron başda olmaqla Fransa dövlət rəsmiləri tamamilə reallıqdan uzaq, qeyri-obyektiv açıqlamalar verirlər. Bütün bunların tək məqsədi Azərbaycana təzyiq göstərməkdir. Amma bu tam olaraq əks təsir göstərir. Bu gün Azərbaycan öz ədalətli mövqeyi ilə Fransanın ört-basdır etdiyi cinayətlərinin işıq üzünə çıxmasına səy göstərir, Fransanın yürütdüyü neokolonializm siyasətindən əziyyət çəkən, müstəmləkə həyatı yaşayan xalqların yanında yer alır.

**Musa BAĞIRLI,**
**"Respublika".**

RƏYLƏR, MÜLAHİZƏLƏR

# Milli maraqlara uyğun müstəqil siyasət



**Azər BADAMOV,**
**Milli Məclisin deputatı.**

**Bu gün dünya nizamı İkinci Dünya müharibəsindən sonra özünün ən çətin dövrünü yaşayır. Böyük güclər silahlar və müharibələr hesabına öz gəlirlərini artırmaq istəyir, Qərb, Rusiya və digər ölkələr arasında nüfuz uğrunda mübarizə davam edir. Ona görə də dünya gücləri beynəlxalq hüquq normaları gözlənilmədən birtərəfli şəkildə öz maraqlarına uyğun müharibələri dəstəkləyir və sonu görünməyən münaqişə ocaqları yaradır. Müharibələrin bizim qonşu ölkələrdə baş verməsi beynəlxalq siyasətimizin daha doğru şəkildə aparılmasını tələb edir. Bir çox dövlət başçıları yanlışlıqlara yol verərək müharibələrə cəlb olunur və həm öz ölkəsini müəyyən çətinliklər qarşısında qoyur, həm də müharibələrin uzunmüddətli olmasına şərait yaradırlar.**

Buna Rusiya-Ukrayna və İsrail-Fələstin müharibələrini misal göstərmək olar. Qərb dövlətlərinin ədalətsiz yanaşmaları həmin ölkələrdə dinc sakinlərin həyatını cəhənnəmə döndərmişdir. Şəhərlər və kəndlər dağıdılır, insanlar öz yurdlarından didərgin salınır və beləliklə, dünya nizamında xaos yaşanır. Bu günlərdə yeni bir münaqişə ocağı da yarandı. Dəməşqdəki İran konsulluğuna endirilən zərbədən sonra İranın İsrailə hücumu gözlənilirdi. Təbii ki, bu hücum baş tutdu və Qərbin təzyiqləri qarşısında qalan İran vəziyyəti gərginləşdirməmək üçün hərbi əməliyyatları dayandırdığını bildirdi. Amma İsrail İranın cavabını vermədən hərbi əməliyyatları dayandıracaqmı? ABŞ və birləşmiş Qərb İsrailin yanında olduğunu və bütün vasitələrlə kömək edəcəklərini ifadə etdilər. Lakin İsrailin İrana cavab verəcəyi də gözləniləndir. Bütün bunlarla yanaşı, qonşu dövlətlərdə münaqişələr baş verməsinə baxmayaraq, özünün müstəqil balanslaşdırılmış siyasətini yürüdən Azərbaycan var. Prezident İlham Əliyevin düşünülmüş uğurlu siyasəti 30 il erməni işğalı altında qalmış torpaqların azad olunmasına və bütün ərazilərində suverenliyin bərpasına yol açdı. 44 günlük müharibə başa çatandan sonra Prezident İlham Əliyev Ermənistana sülh əlini uzatdı. Qərbin təzyiqləri altında olan Ermənistan müstəqil siyasətini yürüdə bilmir və regionu beynəlxalq güclərin toqquşduğu hərbi poliqona çevirmək istəyir. Amma Prezident İlham Əliyevin uğurlu beynəlxalq siyasəti ABŞ və Aİ ilə münasibətlərin yüksək səviyyədə inkişaf etməsinə və Azərbaycanın maraqlarına Qərbin hörmətlə yanaşmasını tələb edir. Məhz 5 apreldə Brüsseldə baş tutmuş ABŞ, Aİ və Ermənistan arasında keçirilmiş üçtərəfli görüş ərəfəsində ABŞ Dövlət katibi Antoni Blinken və Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayenin Prezident İlham Əliyevə zəng etməsi və keçiriləcək görüşün Azərbaycanın maraqlarına qarşı olmadığını bildirməsi ölkəmizə olan böyük hörmətdən irəli gəlmişdir. Təbii ki, 5 aprel görüşündən sonra Ermənistana müəyyən hərbi texnikaların göndərildiyinin də şahidi olduq. Amma bu masştablı xarakter almadı. Prezident İlham Əliyev milli maraqlarımıza uyğun müstəqil siyasət yürüdür. Siyasətimiz dost ölkələrlə dostluq və əməkdaşlığın möhkəmləndirilməsinə, dost olmayan ölkələrlə də əməkdaşlıq imkanlarını nəzərdən keçirilməsinə xidmət edir. O cümlədən qonşu ölkələrdə səsləndirilən təxribatçı çağırışlara qoşulmuruq və dostluğumuzu hər şeydən üstün tuturuq. Məhz ona görə də 44 gündə torpaqlarımızı inamla azad edə bildik və 23 saatda keçirilən lokal xarakterli antiterror tədbirləri ilə Qarabağda erməni separatizminin yuvasını dağıda bildik. Bu gün nizamı pozulmuş gərgin dünyada Azərbaycan çox az ölkələrdəndir ki, sabitlik adasına çevrilmişdir. Biz ölkəmizdə sabitlik və inkişafı təmin etdiyimiz kimi, beynəlxalq arenada da etibarlı tərəfdaş kimi qlobal problemlərin həll olunmasına töhfə veririk.

Belə ki, Azərbaycan Qoşulmama Hərəkatına uğurla sədrlik etdi, mütəmadi olaraq mədəniyyətlərarası beynəlxalq humanitar forumlar keçirir, Fransanın neokolonializm siyasətini ifşa edən və müstəmləkəçilikdən əziyyət çəkən xalqları bir araya gətirən Bakı Prosesinə ev sahibliyi edir, qlobal iqlim istiləşmələrinə qarşı dünyanı həmrəyliyə dəvət edən COP29 beynəlxalq konfransına ev sahibliyini edəcəyik və bu sıradan təşəbbüsümüzlə baş tutan çoxlu beynəlxalq tədbirləri qeyd edə bilərik ki, ölkəmiz beynəlxalq səviyyədə sülhün və təhlükəsizliyin təmin olunmasına töhfə verir. Hətta Prezident İlham Əliyevin təşəbbüsü ilə qonşu dövlətlər arasında münasibətlərin normallaşması proseslərinin baş verdiyini də görürük. Ölkəmizin sabitlik adası olması beynəlxalq güclərin görüş məkanı kimi etibar qazanmasına da yol açmışdır. Belə ki, beynəlxalq səviyyədə ən böyük güclər hesab olunan NATO-nun və Rusiyanın Baş Qərargah rəisləri dəfələrlə Bakıda görüşmüş və müəyyən məsələlər müzakirə olunmuşdur. Bu gün gərginliyin artdığı dünyada yenə də Azərbaycan kimi sabitləşdirici mövqedə duran dövlətlərin çox olmasına ehtiyac var. Bu baxımdan, davam edən müharibələrin dayandırılması üçün görüşlərin keçirilməsinə ən münasib ölkə də Azərbaycandır. Bu baxımdan, Rusiya-Ukrayna-Qərb və İsrail-Fələstin-İran müharibələrinin dayandırılması ilə bağlı danışıqların aparılmasının ən münasib yeri də məhz Azərbaycan olduğunu qeyd edə bilərik. Çünki dövlət başçımızın apardığı balanslaşdırılmış beynəlxalq siyasət bir-biri ilə düşmən ölkələrin barışmasına və münasibətlərin normallaşmasına töhfə verir. Məhz Prezident İlham Əliyev siyasətinin uğurudur ki, Azərbaycan bütün beynəlxalq tərəfdaşlara Cənubi Qafqazda ayırıcı xərclərin çəkilməsinə açıq şəkildə etirazını bildirir. Ölkəmizin gələcəyə baxışları sülh və əməkdaşlıq üzərində qurulmuşdur. Bu baxımdan, regionda yeni əməkdaşlıq platformalarınm yaranmasını dəstəkləyirik. O cümlədən Ermənistanı da əməkdaşlığa dəvət edirik. Təbii ki, ölkələrin suveren ərazilərinə hörmət prinsipi əsasında bu əməkdaşlıq qurulmalıdır. Bu baxımdan, regionda artan gərginliklər fonunda inkişaf edən sabitlik adası Azərbaycan var. Birmənalı şəkildə qeyd edə bilirik ki, bu sabitliyin, əməkdaşlığın və inkişafın lideri Prezident İlham Əliyevdir. ■

**"Jurnalist əməyi qeyri-adi əməkdir. Böyük səy, zəhmət, cəsurluq, hünər, fədakarlıq, öz peşəsinə vurğunluq tələb edən əməkdir".**

**Heydər ƏLİYEV,**
**Ümummilli Lider.**

# 90 yaşlı qəzet





**Ümummilli lider Heydər Əliyev hər zaman respublikamızın kütləvi informasiya vasitələri işçilərinə xüsusi qayğı göstərmiş, onların əməyini yüksək qiymətləndirmişdir. Bu ənənəni uğurla davam etdirən dövlətimizin başçısı cənab İlham Əliyevin ölkədə mətbuat azadlığının təmin olunması, jurnalistlərin peşə fəaliyyətini davam etdirilməsi üçün şəffaf şəraitin yaradılması, media işçilərinin maddi rifah halının yaxşılaşdırılması istiqamətində atdığı addımlar rəğbətlə qarşılanır.**

Bölgələrdə fəaliyyət göstərən KİV əməkdaşları da mətbuat orqanlarına göstərilən qayğıdan bəhrələnir və onların əməyi hər zaman yüksək qiymətləndirilir. Tərtər Rayon İcra Hakimiyyətinin orqanı "Yeni Tərtər" qəzetinin ilk sayının işıq üzü görməsindən 90 il keçir.

Keçmiş cəbhə bölgəsinə ən yaxın məsafədə yerləşən Tərtər erməni terrorundan əziyyət çəkmiş, atəşkəs əldə olunmasına baxmayaraq, rayon Ermənistan ordusu tərəfindən atəşə məruz qalmış, mülki insanlar qətlə yetirilmiş, bir sözlə, həyatın bütün sahələrində çətinliklər yaranmışdır. Lakin qəhrəman tərtərlilər öz ata-baba torpaqlarında məğrur dayanmış, vətənlərində yaşamağa üstünlük vermiş, beləliklə, bölgədə həyat öz axarı ilə davam etmişdir.

Sözsüz ki, rayonun ictimai-siyasi həyatında özünəməxsus yeri olan, çoxsaylı oxucu kütləsi qazanmış "Yeni Tərtər" qəzetinin də fəaliyyətinə həmin zamanlarda baş verən proseslər mənfi təsir göstərmişdir. Lakin fədakar kollektiv qəzetin yaşaması üçün gərgin əmək sərf etmişdir.

Bu gün "Yeni Tərtər" qəzeti rayon rəhbərliyinin hərtərəfli qayğısı sayəsində ayda 3 dəfə işıq üzü görür, hər bir tərtərlinin stolüstü qəzetinə çevrilmişdir. Qəzet rayonda, respublikada, eləcə də dünyada baş verən prosesləri doğru, düzgün oxuculara çatdırır.

"Yeni Tərtər" qəzetinin baş redaktoru, "Qızıl qələm" mükafatı laureatı, "Vətənpərvərlik işlərində xidmətlərinə görə", "Heydər Əliyevin 100 illiyi" medalı ilə təltif olunmuş, ömrünün 50 ilini mətbuata həsr edən Svetlana Bağırova bildirdi ki, 44 günlük Vətən müharibəsi zamanı Tərtərin hər bir vətəndaşı Ali Baş Komandan İlham Əliyevin dəmir yumruğu ətrafında monolit birlik nümayiş etdirərək qazanılan möhtəşəm qələbəyə istər döyüş meydanında, istərsə də arxa cəbhədə öz payını veribdir. 90 il ərzində qəzet rayonumuzun salnaməsini yazıb. Xüsusən ölkəmiz müstəqillik əldə etdikdən sonra rayonumuzun həyatında baş verən yeniliklər onun səhifəsində öz əksini tapıb. Müharibə mövzusu məqalələrimizin əsasını təşkil edib. Çünki 30 ildən çox bir müddətdə Tərtərdə atəş səsləri bir gün də olsun dayanmayıb.

Həmin zamanlarda "Yeni Tərtər" qəzeti rayonda mövcud olan qərargahın fəaliyyətini, şəhidlərimizin, qazilərimizin qəhrəmanlıqları haqqında yazılar çap edib, qələbədən sonra rayonda Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa və yenidənqurma işlərini oxucuların nəzərinə çatdırır.

İşğaldan azad olunmuş ərazilərimizdə, eləcə də rayonun kəndlərində həyata keçirilən irimiqyaslı layihələrlə bağlı reportajlar qəzetin səhifələrində geniş yer alır.

Müsahibim bildirdi ki, qəzet 1934-1937-ci illərdə "Kolxozçuların varlanması yolunda", 1937-1991-ci illərdə "Qızıl bayraq", 1991-2005-ci illərdə "Tərtər", 2005-ci ildən "Yeni Tərtər" adı ilə fəaliyyətini uğurla davam etdirir.

"Yeni Tərtər" qəzetinə fəaliyyətində uğurlar arzulayır, 90 illik yubileyi münasibətilə təbrik edirik.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# GƏNCƏNİN İNANC, DÜRÜSTLÜK, MƏRDLİK SİMVOLLARI

**Gəncənin qədimliyini, insanlarının mərdliyini, cəsurluğunu, dürüstlüyünü əks etdirən, mərdlik və cəsurluq simvolları olan türbələr və abidələr şəhərə xüsusi gözəllik verir. Uzun illərdir bu türbələr əhali tərəfindən ziyarətgaha çevrilmişdir.**



**Cavad xan türbəsi** Gəncə şəhərində, Şah Abbas məscidinin yaxınlığında yerləşən qədim tarixi türbədir. Hələ keçmiş SSRİ dövründə məscidin həyətində fəvvarə inşa etmək məqsədilə aparılan qazıntılar zamanı ərazidən üstü ərəb dilində yazılmış başdaşı və məzar aşkarlanır. Məzarın Gəncə xanı Cavad xana aid olduğu aşkar olunur və qismən bərpa edilir. Nəhayət, 2005-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə məzarın üstündə Qacar xanədanından olan böyük Azərbaycan sərkərdəsi, dövlət xadimi, Gəncə xanlığının sonuncu hökmdarı Cavad xana layiq türbə inşa edilib və onun xatirəsi əbədiləşdirilib. Türbə Arran memarlıq məktəbi üslubuna uyğun bişmiş kərpicdən dördkünc formada inşa edilib və üstü günbəzlə örtülüb. Türbənin mərkəzində isə Cavad xanın məzarı yerləşir.

1786-cı ildən Gəncə şəhərini idarə edən Cavad xan Ziyadoğlu qanlı döyüşdə 1804-cü il yanvar ayının 3-dən 4-nə keçən gecə qəhrəmancasına şəhid olmuşdur.

**Comərd Qəssab türbəsi** təxminən VII-VIII əsrlərə aid edilən tarixi abidə, Gəncə çayının sağ sahilində "İmamzadə" dini ziyarətgah kompleksinin cənubuna doğru təxminən 1500 metr məsafədə, Gəncə Dövlət Tarix Mədəniyyət Qoruğunun ərazisində yerləşir. Türbədə dəfn edilmiş Comərd Qəssab sakinlərin dediyinə görə, Gəncədə böyük hörmətə malik dürüst, çəkidə dəqiq, mərd, əliaçıq və xeyriyyəçi qəssab olmuşdur.

Türbə planda səkkizguşəli formaya malikdir. Səkkizguşənin küncləri həm daxildən, həm də xaricdən çıxıntılarla işlənmişdir. Türbə sovet hakimiyyəti illərində baxımsızlıqdan dağılmışdı. Türk dünyasının fenomeni, əbədiyaşar Heydər Əliyev rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanda tarixi abidələrin, bütün müqəddəs dini məbədlərin qorunub saxlanmasına, təmirinə və bərpasına xüsusi diqqət yetirilib. Öz dövründə Əlyar (Əli Aşiq) adını qəbul edən Comərd Qəssab Gəncə şəhərinə yadellilərin hücumu zamanı şəhəri müdafiə edərkən qəhrəmancasına döyüşərək şəhid olmuş və şəhər əhalisi onu həlak olduğu yerdə dəfn etdirmişdir. Türbə yerli əhali tərəfindən müqəddəs ziyarətgah kimi daim ziyarət edilib. Comərd Qəssab türbəsində ilk dəfə 1920-ci illərdə və 1940-cı ildə isə arxeoloq İsaq Cəfərzadə tərəfindən arxeoloji tədqiqatlar aparılıb. Arxeoloji tədqiqat nəticəsində türbənin üzərində və ətrafında az da olsa mavi kaşı qalıqları tapılmışdır ki, bu da türbənin üzərinin mavi kaşılarla bəzədildiyini deməyə əsas verir. Türbə 1139-cu il zəlzələsində dağılsa da sonradan yerli əhali tərəfindən bərpa edilərək 1950-ci illərə yarıuçuq, qəzalı vəziyyətdə çatıb. 2004-cü il dekabr ayının 2-də Comərd Qəssab türbəsinin bərpasından sonra açılışı olub. Türbənin bərpası Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib. Comərd Qəssabın qəbri üzərində əvvəlki türbənin bənzəri olaraq 8 tağlı, üzəri günbəzlə tamamlanan məqbərə inşa edilərək şəhər sakinlərinin ixtiyarına verilib. Yerli əhali Gəncəyə göstərdiyi sonsuz diqqət və qayğıya görə dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıq edirlər.





Adıgözəlovlar Türbəsi

**Əsgər ağa Gorani türbəsi** tanınmış yazıçı, aktyor, teatrşünas, tərcüməçi və jurnalist Əsgər ağa Adıgözəlovun (Gorani, 1857-1910), mədəniyyət tariximizdə silinməz izlər qoyan maarif xadiminin məzarının üzərində inşa olunub. Tarixçi Mirzə Adıgözəl bəy Qarabaği bəyin nəvəsi olan Əsgər ağa Bakı Şəhər Gimnaziyasını qızıl medalla bitirib. Moskvada Petrovski-Razumovski adına Kənd Təsərrüfatı Akademiyasının məzunu olub. O, milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin "Əkinçi" qəzetinə yaxından kömək göstərib, sonralar qəzetlə mütəmadi əməkdaşlıq edib. Ə.Gorani beş il Gəncə Şəhər Bələdiyyə İdarəsinin rəisi, şəhərdəki Mixaylovsk məktəbinin fəxri nəzarətçisi vəzifələrində işləyib. Gəncədə öz vəsaiti hesabına qız məktəbi açıb.

Abidədə son təmir-bərpa işləri 2016-cı ildə - Ə.Goraninin 160 illiyi ərəfəsində həyata keçirilib. Bərpa zamanı sərdabənin üzərində maarif xadiminin barelyefi yerləşdirilib. İçəridə isə ümummilli lider Heydər Əliyevin bu xalq fədaisi, ilk milli teatrımızın yaradıcılarından biri, "Hacı Qara" pyesinin tamaşasında baş qəhrəmanın ilk ifaçısı olmuş Ə.Gorani haqqında sözləri həkk olunub. Həmçinin onun qısa tərcümeyi-halı və xeyriyyəçilik fəaliyyəti barədə Tiflisdə çıxan qəzetlərdən birinin məqaləsindən parça həkk edilmiş lövhələr yerləşdirilib.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

*XX əsrin bəlası - Deportasiya*

# Qibləgahım, dinim, imanım Göyçədi

**Azərbaycanın Qərb bölgələrinin - Göyçə, Zəngəzur, İrəvan, Ağbaba, Dərələyəz, Vedibasar və digər əzəli yurd yerlərimizin hər qarışında türkün tarixinin izləri yaşayan qudsal torpaqlarımız, erməni işğalı altında qalmış aranlı-yaylaqlı ağır ellərimiz var. XX əsrin ayrı-ayrı dövrlərində Oğuz yurdu haylaların xəyanəti ilə üzləşdi... Göyçəni dörd dolanıb Ələsgər ocağında sazın-sözün sehrində, necə deyərlər, "varından yox olmayan", o ellərin bal kimi şirin ləhcəsini dinləməyən hər kəs nələri itirdiyini təsəvvürünə belə gətirə bilməz! Gənclik illərimdə, ulu Göyçədən ayrı düşəcəyimiz kimsənin ağlına gəlməyən vaxtda, mahallarımızın erməni əsarətində qalmasından doğan yanğını belə ifadə etmişdim:**

*"İrəvan çuxuru" alışır sazda,*
*Sinəmə sığmayan "Göyçə gülüm" var…*
*Dağların başında Ələsgər kimi*
*Bizdən ayrı düşən bir küsülüm var!*

XX əsrin sonunda Qərbi Azərbaycandakı o ağır ellər yerindən tərpəndi: dağlar yerindən oynayan kimi, min illərin palıdı, çinarı kökündən qopan kimi…

Azərbaycanlılar 1828-1832, 1877-1878, 1905-1907, 1918-1920, 1948-1953 və 1988-ci illərdə öz tarixi torpaqlarından kütləvi şəkildə köçürülməyə, deportasiyaya məruz qalmışlar. SSRİ dövründə sovet rəhbərliyi tərəfindən bu proses daha məharətlə aparılmış və bu zaman erməni vandalları Sov. İKP MK-nın siyasi bürosundakı havadarlarına (İ.Stalin, Mikoyan və Beriya üçlüyünə) arxalanmışlar. 1948-1953-cü il deportasiyası ilə bağlı İ.V.Stalinin verdiyi 4083 saylı Fərman belə adlanır. "Azərbaycan millətindən olan kolxozçuların və Qərbi Azərbaycandakı digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi barədə". Bu deportasiya nəticəsində 150 min soydaşımız Ermənistanın dağlıq rayonlarından Azərbaycanın qızmar iqlimi olan Kür-Araz ovalığına köçürülmüşdür.

1812-ci ildə Krımın ruslar tərəfindən zəbt edilməsinə fəal kömək edən ermənilər Rusiya hökuməti yanında böyük etibar qazandılar. Rus imperiyası 1853-1856, 1877-1878-ci illərdə Türkiyə və 1826-1828-ci illərdə İranla müharibələrdə də ermənilərə söykəndi. Ermənistanın bu "xidməti"nin əvəzində 1828-ci ildə İrandan 40 min, 1829-cu ildə Türkiyədən 90 min erməni gətirilib, İrəvan-Naxçıvan xanlığı ərazisində yerləşdirildi. Müsəlmanların bayram günü, yəni 20 mart 1828-ci ildə həmin xanlıqların ərazisi erməni vilayəti elan edildi. Halbuki o vaxta qədər bu vilayətlərdə olan 1114 kənddən ancaq 62-də erməni yaşayırdı. Dağıdılmış, əhalisi qırılmış 359 müsəlman kəndində ermənilər (haylar) məskunlaşdırıldı. Bunun nəticəsi idi ki, artıq 1918-ci ildə bu ərazidə yaşayan əhalinin sayı - ermənilər 775, azərbaycanlılar 575 min nəfər təşkil edirdi.

Müsəlmanların pərakəndə qırğınları ilə kifayətlənməyən erməni daşnakları 1917-ci ilin may ayında Qarsda 35 min nəfərlik qoşun korpusu yaradaraq onları üç diviziyaya böldülər. Arisyan İrəvanətrafı rayonları, Silikyan Göyçə gölü ətrafını, Andranik isə Naxçıvanı, Zəngəzuru, Qarabağı, Şuşa və sair yerləri zəbt etməli idi. Qeyd olunan ərazilərin kəndlərini dağıdıb, əhalisini qılıncdan keçirib qırmağa, damlara doldurub yandırmağa başladılar. Andranikin diviziyası Zəngəzurda, Qarabağda 130 kəndi dağıdıb, əhalisini qırdı, 21 kəndin əhalisini damlara doldurub yandırdı. İrəvanda 20 min müsəlman əhali qətlə yetirildi. Tək Vedi rayonunda 45 kəndi dağıdıb qırmaqla kifayətlənməyən ermənilər rayonun Millidərə, Çanaxçıdərə zonalarında 17 kəndin əhalisini damlara doldurub yandırdılar. Göyçə gölü ətrafı rayonlarda, o cümlədən Çəmbərək, Basarkeçər rayonlarında 150 kənd dağıdılıb, əhalisi qətlə yetirildi və sağ qalanlar ata-baba yurdlarından zülm və işgəncə ilə qovuldular. Bayazit rayonunun Bığlı, Ağ qala, Ağzıbir kəndlərinin əhalisi qışın boranlı günlərində Göyçə gölünə dolduruldu.

1918-ci ildə indiki Ermənistanın 575 min nəfər müsəlman əhalisi olduğu halda, 1920-ci ilin noyabrında burada ancaq 12 min nəfər azərbaycanlı qalmışdı.

Sovetləşmədən sonra Qərbi Azərbaycanda əsasən hökumət başına ermənilər keçdi. Xan, ağa, bəy, molla, millətçi və sair adlarla minlərlə azərbaycanlı şərlənərək məhv edildi. Sağ qalan soydaşlarımızı indiki Ermənistanın Martuni, Bayazit, Gərni, Əştərək, Talin, Cəlaloğlu və bir neçə başqa rayonlarda öz daimi yurdlarına buraxmadılar.



Kollektivləşmə zamanı kolxoza yazılmaqdan boyun qaçırdıqlarına görə və digər bəhanələrlə Basarkeçər rayonundan 25, Vedi rayonundan 28 azərbaycanlı güllələndi. Vedi rayonunun Alməmməd kəndində yaşayan 80 ailə 1932-ci ildə bir gecədə Araz çayı ilə Türkiyəyə qaçarkən onların çoxu çayda batdı. Basarkeçər rayonunda bir gecədə 157 nəfər həbs edilərək qazamata salındı. Ermənilərin xalqımıza qarşı törətdikləri belə xəyanəti saymaqla qurtarmaq olmaz.

XX əsrin 80-ci illərində Qərbi Azərbaycanda ermənilər daha da azğınlaşdılar. Ermənilər Qorbaçovu ələ aldılar, Raisanı başdan-ayağa daş-qaşla bəzədilər, bununla da 1988-ci ildə Qərbi Azərbaycandakı soydaşlarımızın ata-baba yurdlarından qovulmasına şərait yaradıldı. Son deportasiyada bir nəfər olsun azərbaycanlı Ermənistan deyilən ərazidə qalmadı. Qızıl Moskva isə bu ədalətsizliyə göz yumdu.

1988-ci ildə Qərbi Azərbaycandan deportasiyaya məruz qalan 300 minə yaxın azərbaycanlıdan biri də mənəm. Əslən Çəmbərək rayonunun Ardanış kəndindənəm. Gənclik illərim atlas geyimli dağların qoynunda, Göyçə gölünün nəğməli sahillərində keçib.

Qərbi Azərbaycandan ayrıldığım vaxtdan artıq 36 il ötür. Bütün həmvətənlərim yurd həsrətilə yaşayır, əmindirlər ki, günlərin birində qəribsəmiş el-obalarına dönəcəklər.

**Fatma ABDULLAYEVA,**
**mühəndis-texnik.**

# DÜNYA BUGÜN

XƏBƏRLƏR

## RUSİYA VƏ İRAN LİDERLƏRİ YAXIN ŞƏRQDƏKİ VƏZİYYƏTİ MÜZAKİRƏ EDİBLƏR



Rusiya prezidenti Vladimir Putin və iranlı həmkarı İbrahim Rəisi arasında telefon danışığı baş tutub. Bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.

Bildirilir ki, Putin Rəisini və İrandakı bütün müsəlmanları müqəddəs Ramazan ayının bitməsi və Ramazan bayramı münasibətilə təbrik edib.

Eyni zamanda, Rusiya və İran liderləri Yaxın Şərqdəki vəziyyəti müzakirə ediblər. Vladimir Putin bütün tərəflərin təmkinli davranacağına və yeni qarşıdurmaya yol verməyəcəyinə ümid etdiyini bildirib və əks halda bunun bütün region üçün faciəvi nəticələrə yol açacağını diqqətə çatdırıb.

Bununla yanaşı, İbrahim Rəisi öz növbəsində İranın İsrailə hücumunun məcburi olduğunu və məhdud xarakter daşıdığını, müstəsna olaraq hərbi obyektlərin hədəf alındığını vurğulayıb.

Kremlin açıqlamasına görə, İran prezidenti rəsmi Tehranın gərginliyi artırmaqda maraqlı olmadığını bildirib.

## EMMANUEL MAKRON FRANSA DİPLOMATİYASINI MƏHVƏ SÜRÜKLƏYİR



Fransa diplomatiyası prezident Emmanuel Makron tərəfindən tamamilə məhv edilib və onun Parisdə keçiriləcək Olimpiya Oyunları zamanı dünyada atəşkəs elan etmək təklifi heç bir uğur gətirməyəcək. "Report" agentliyinin xəbərinə görə, bu fikri Fransa hərbçisi Alan Korvez müsahibəsində Makronun müvafiq təşəbbüsünü şərh edərkən bildirib.

Məlumata əsasən, A.Korvez vurğulayıb ki, Fransa bütün dünyada, həmçinin Afrika, Rusiya və Avropada nüfuzunu itirib. O, əlavə edib ki, Makronun atəşkəs çağırışları real strateji düşüncəyə əsaslanmır.

Eyni zamanda, Alan Korvezin fikrincə, heç bir ölkə Ukraynada, Qəzza zolağında, Sudanda və planetin digər yerlərində Fransa diplomatiyası vasitəsilə atəşkəs təşəbbüsünü həyata keçirməyəcək.

Bununla yanaşı, Alan Korvez hesab edir ki, Ukrayna, Rusiya, Avropa İttifaqı, ABŞ və İsrailin problemlərini həll etmək üçün Emmanuel Makrona ehtiyac yoxdur.

## ABŞ SENATORU UKRAYNAYA HƏRBİ DƏSTƏYİ DAYANDIRMAĞA ÇAĞIRIB




"ABŞ Ukraynaya hərbi yardımı dayandırmalı və diqqətini daxili siyasətə yönəltməlidir". Bu barədə amerikalı senator Ceyms Devid Vens "CNN" telekanlına müsahibəsində bəyan edib.

Senatorun sözlərinə görə, Rusiyanın Ukrayna Silahlı Qüvvələri üzərində açıq şəkildə üstünlüyü mövcuddur: "Hazırda mərmilərin nisbəti beşə birdir. İsrail, Tayvan məsələsində onlara ehtiyac var. Bütün bu münaqişələrdə eyni vaxtda iştirak edə biləcəyikmi? Xeyr. Bunun sadəcə riyazi mənada mənası yoxdur".

Eyni zamanda, senator qeyd edib ki, ABŞ Ukraynaya hərbi və maliyyə dəstəyini artırsa belə, bu, döyüş meydanında vəziyyəti ciddi şəkildə dəyişməyə və hərbi əməliyyatları dayandırmağa kömək etməyəcək.

Xatırladaq ki, bir müddət öncə Ağ Evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi bildirmişdi ki, Ukraynadakı münaqişə İsrail ətrafındakı vəziyyətdən fərqlənir və ABŞ-ın bu ölkədə bazaları olmadığı üçün hava hücumlarının dəf edilməsində birbaşa iştirakını nəzərdə tutmur.

## AEBA RƏHBƏRİ BMT-yə ZAPOROJYE AES-lə BAĞLI MÜRACİƏT EDİB




BMT Təhlükəsizlik Şurası Zaporojye Atom Elektrik Stansiyasında təhlükəli insidentlər riskini azaltmaq üçün mümkün olan hər şeyi etməlidir. "İnterfaks" agentliyinin xəbərinə görə, bu barədə Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) rəhbəri Rafael Qrossi bildirib.

"Biz nüvə fəlakətinə təhlükəli dərəcədə yaxınlaşdıq və bu gün insident riskini minimuma endirmək üçün mümkün olan bütün addımlar atılmalıdır", - deyə Rafael Qrossi BMT Təhlükəsizlik Şurasındakı çıxışı zamanı Zaporojye Atom Elektrik Stansiyasına pilotsuz uçuş aparatları ilə edilən son hücumları şərh edərkən vurğulayıb.

AEBA rəhbəri Zaporojye Atom Elektrik Stansiyasının altı reaktorunun hamısının soyuq vəziyyətdə olmasını alqışlayıb. Lakin o, əlavə edib ki, nüvə insidentinin riski hələ də çox realdır.

## Aİ İRANIN İSRAİLƏ CAVAB HÜCUMU BARƏDƏ ÖNCƏDƏN MƏLUMATLI OLUB



Avropa İttifaqı (Aİ) İsrail ordusunun İranın Suriyadakı konsulluğunu atəşə tutmasından sonra İranın İsrailə cavab hücumu barədə əvvəlcədən məlumatlı olub. "Teleqraf.com"un verdiyi xəbərə görə, bunu Aİ-nin xarici siyasət xidmətinin rəhbəri Jozep Borrel bəyan edib.

"Bir neçə gün öncə İranın cavab hücumu ilə bağlı bizə xəbərdarlıq edilmişdi", - deyə Aİ-nin baş diplomatı bildirib. Lakin bu məlumatı dəqiq haradan aldıqlarını açıqlamayıb.

Bununla yanaşı, Jozep Borrelin açıqlamasına görə, Aİ-nin siyasi məqsədi Yaxın Şərqdə münaqişənin genişlənməsinin qarşısını almaqdır.

Avropalı diplomat həmçinin qeyd edib ki, Dəməşqdəki konsulluğa hücumdan sonra Avropa İttifaqı Tehrana regionda heç bir ölkənin münaqişənin genişləndirilməsində maraqlı olmadığını bildirib.

## RUSİYA ERMƏNİSTANA SANKSİYALAR TƏTBİQ ETMƏYƏ HAZIRLAŞIR



Rusiya tezliklə Ermənistana qarşı iqtisadi sanksiyalar tətbiq etməyə hazırlaşır. Bu barədə Ermənistanın "Past" qəzeti xəbər verib.

Nəşrin açıqlamasına əsasən, Ermənistanın hakimiyyət orqanları bundan xəbərdar olsalar da, panika yaratmamaq üçün ictimaiyyətə məlumat vermirlər.

Xəbər verildiyinə görə, baş nazirin müavini Mqer Qriqoryan hakim partiyanın qapalı iclasında bəyan edib ki, rəsmi Moskva artıq mayın əvvəlində Yuxarı Larsı bağlamaq və Ermənistan kənd təsərrüfatı məhsullarının Rusiyaya ixracını qadağan etmək niyyətindədir.

Bununla yanaşı, məlumatda qeyd olunur ki, kənd təsərrüfatı mövsümünün əvvəlində Rusiyanın belə bir addım atması erməni fermerləri və ixracatçıları üçün ağır zərbə olacaq.

"Ermənistan hakimiyyətinin "B" planı yoxdur. Üstəlik, son vaxtlar Ermənistanın Rusiyadan iqtisadi asılılığı dərinləşib", - deyə nəşr bildirib.

Məlumata görə, erməni fermerləri və ixracatçılarının məhsullarının 90 faizdən çoxu məhz Rusiyaya ixrac olunur. Bu isə on minlərlə insanın dolanışığını təmin edir. Yuxarı Larsın bağlanması durumunda Ermənistanda əsl sosial iğtişaş yaranacaq.

Eyni zamanda, "Past" qəzeti ərəb ölkələri və Avropanın Ermənistanın keyfiyyətsiz məhsulları üçün qapılarını açmaq istəmədiklərini diqqətə çatdırıb.

## TÜRKİYƏDƏ "KEMANKEŞ 2"nin SINAQ PROSESİ BAŞLAYIB



"BAYKAR" şirkəti tərəfindən hazırlanan yeni nəsil "KEMANKEŞ 2" smart qanadlı raketinin sınaq prosesi başlayıb. "Trend" agentliyinin verdiyi xəbərə görə, bu barədə Türkiyə mediasının məlumatında qeyd olunur.

Məlumata əsasən, təxminən 1 saat havada qala bilən qanadlı raket, reaktiv mühərriki sayəsində sürətlə hərəkət edə biləcək və düşmən xəttinin arxasındakı ən riskli hədəflərə qarşı təsirli olacaq.

Bildirilir ki, 200 kilometrdən çox uçuş məsafəsi olan "KEMANKEŞ 2", süni intellektlə dəstəklənən optik bələdçi sistemi sayəsində hədəfini tanıyacaq və çətin hava şəraitində belə onu tam dəqiqliklə məhv etmək qabiliyyətinə malik olacaq.

Bununla yanaşı, gecə və gündüz şəraitində istifadə oluna bilən "KEMANKEŞ 2" maneələrə qarşı texnologiyası sayəsində elektron maneələrdən təsirlənmədən işləyə biləcək. Həmçinin "KEMANKEŞ 2" əldə etdiyi bütün məlumat və şəkilləri yer idarəetmə stansiyasına ötürərək istifadəçiyə məlumatların izlənməsində dəstək olacaq.

**Hazırladı:**
**Vamiq ABBASOV,**
**"Respublika".**

## İDMAN: Daim zirvələrdə

# Taekvondoçularımız iki medal qazanıblar



**Azərbaycan taekvondoçuları Belqradda keçirilən Serbiya açıq çempionatında iki medal qazanıblar.**

G2 kateqoriyalı yarışda Taleh Süleymanov (+87 kiloqram) gümüş mükafata layiq görülüb. Səyyad Dadaşov (54 kiloqram) isə fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

# Dünya Kubokunda iştirak edəcək Azərbaycan gimnastları bəlli olub




**Bu gün Qətərin Doha şəhərində kişi və qadın gimnastikası üzrə Dünya Kuboku yarışları start götürür. Yarışlarda iştirak edəcək Azərbaycan idmançıları bəlli olub.**

Kişilərin mübarizəsində Rəsul Əhmədzadə (dəstəli at və paralel qollar), Mənsum Səfərov (sərbəst hərəkətlər və turnik), İvan Tixonov (dəstəli at, dayaqlı tullanma və paralel qollar), Nikita Simonov (halqalar), Murad Ağarzayev (sərbəst hərəkətlər və dayaqlı tullanma) bacarıqlarını göstərəcəklər. Qadınlardan isə Nazənin Teymurova (dayaqlı tullanma, gimnastika tiri və sərbəst hərəkətlər) qüvvəsini sınayacaq. Yarışda Zəkəriyyə Muradlı və Əhməd Ağayev hakim kimi ölkəmizi təmsil edəcəklər.

# Üzgüçülük üzrə açıq Azərbaycan çempionatı təşkil olunacaq




**Aprelin 24-də üzgüçülük üzrə açıq Azərbaycan çempionatı start götürəcək. Yarış Gənclər və İdman Nazirliyinin, Azərbaycan Üzgüçülük Federasiyasının və Bakı Su İdmanı Sarayının birgə təşkilatçılığı ilə keçiriləcək və aprelin 27-dək davam edəcək.**

Yarışlarda 3-cü idman dərəcəsi olan idmançılar iştirak edəcəklər. Onlar 50, 100, 200, 400, 800 və 1500 metr məsafədə sərbəst üsullarda, 50, 100, 200 metr məsafələrdə arxası üstə, brass və baterflay üsullarda üzəcəklər. Birincilikdə Bakı və Sumqayıtdan 20-yə yaxın müxtəlif klubun və idman cəmiyyətlərinin idmançıları mübarizə aparacaqlar. Qaliblər Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Üzgüçülük Federasiyası tərəfindən müvafiq diplomlarla təltif olunacaqlar.

# Cüdo üzrə Bakı kəndləri birinciliyi keçirilib



**Gənclər və İdman Nazirliyi, Bakı Abadlıq Xidməti və Azərbaycan Cüdo Federasiyasının (ACF) birgə təşkilatçılığı ilə cüdo üzrə U-13 kiçik yaşlı yeniyetmələr arasında Bakı kəndləri birinciliyi keçirilib.**

Yarışlar Hövsan qəsəbəsində yerləşən Fövqəladə Hallar Nazirliyinin İdman Sağlamlıq Mərkəzində baş tutub. Yarışa Bakı kəndlərinin müxtəlif klub, cəmiyyət və idman təşkilatından 400-ə yaxın cüdoçu qatılıb. Turnirdə qalib gələn idmançılara Bakı Abadlıq Xidməti tərəfindən velosipedlər təqdim olunub və bütün medalçılara pul mükafatı verilib.

**Nərgiz İSMAYILOVA, "Respublika".**

# Məşhur mahnının bəstəkarı



**Gəncədə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, görkəmli bəstəkar Qəmbər Hüseynlinin anadan olmasının 108 illiyi qeyd olunub.**

Anım mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, millət vəkili Pərvin Kərimzadə, Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov, Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin rəisi Pərvin Kazımov, Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının məsul əməkdaşları, bəstəkarın ailə üzvləri və şəhər rəsmiləri iştirak ediblər. Bəstəkarın şəhərin Filarmoniya bağındakı məzarı üzərinə tər çiçəklər düzülüb. Bəstəkarın ailə üzvləri çıxış edərək, Qəmbər Hüseynlinin yaradıcılığına göstərdikləri xüsusi diqqətə görə ölkə başçısı İlham Əliyevə, birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürlərini bildiriblər.

Sonra iştirakçılar "Cücələrim" mahnısı ilə bütün dünyaya səs salan Qəmbər Hüseynli haqqında xatirələrini bölüşüblər. Qəmbər Hüseynli 16 aprel 1916-cı ildə Gəncədə dəmirçi Məşədi Muxtarın ailəsində anadan olub. Bəstəkarın "Cücələrim" mahnısı dünyanın 148 xalqının dilinə tərcümə olunub. Sənətşünasların yekdil rəyinə görə, indiyə qədər "Cücələrim" kimi öz müəllifini bütün dünyada tanıtdıran ikinci mahnı olmayıb. Bu mahnı sanki Azərbaycanın "vizit kartı"na çevrilib. 1955-ci ilin payızında sovet nümayəndə heyəti İsveçrədə qarşılanarkən qonaqları bir qrup İsveçrə məktəblisi "Cücələrim" mahnısının ifası ilə salamlayıb. Bu, Azərbaycan musiqisinin sərhədləri aşması demək idi. Vaxtilə kino xadimlərimiz Fransada olarkən dünyaşöhrətli Çarli Çaplin gələnlərin Azərbaycandan olduqlarını biləndə piano arxasına keçərək "Cücələrim"i ifa edir və qonaqlara üz tutaraq deyir: "Demək siz bu melodiyanın vətənindənsiniz?! Məndən o bəxtəvər bəstəkara salam yetirin!". Sonda bəstəkarın hər kəs tərəfindən sevilən "Ay işığında" mahnısı ifa olunub.

**Zabit XƏLİLOV, "Respublika".**







**Sosial ödənişlər üzrə ayrılan vəsaitlərin həcmində artım dinamikası bu il də artmaqda davam edir.**

2024-cü ilin yanvar-mart aylarında pensiya, müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımları üzrə əhaliyə 2 milyard 183 milyon manat ödənilib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 224,4 milyon manat və ya 11,5 faiz çoxdur.

Qeyd edək ki, sosial ödənişlərin artırılması istiqamətində növbəti addım olaraq, cari ilin əvvəlindən bütün pensiyaların ötən il üzrə orta aylıq əməkhaqqı artımına uyğun olaraq 11,2 faiz indeksləşdirilməklə artırılması təmin edilib.

**"Respublika".**

Baş redaktor
Hümbət MUSAYEV

Redaksiya ilə əlaqə nömrələri

| | |
|---|---|
| Qəbul otağı | 493-59-08 |
| Katiblik | 538-43-41 |
| Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası | 538-55-20 |
| Rəqəmsal inkişaf, iqtisadiyyat və islahatlar redaksiyası | 434-56-90 |
| Humanitar siyasət redaksiyası | 538-25-70 |
| Xəbərlər, ictimai rəy və sosial problemlər redaksiyası | 538-01-31 |
| Texniki şöbə | 538-61-02 |
| Ümumi şöbə | 510-82-52 |
| Reklam və elan xidməti | 441-20-23 |

Redaksiyanın ünvanı

AZ1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
www.respublika-news.az
respublikaqezeti@mail.ru, resp.paper@gmail.com

Qeydiyyat №7 İndeks 0240 Tiraj: 4214

*"Respublika" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.*

Qəzetin saytına keçid üçün QR kodu telefonunuzla oxudun

Sifariş 829, Satış qiyməti 60 qəpik

**AM058/2024 "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC**

*"Bibiheybət" GTZ-nun ərazisi, velosiped yollarına və avtodayanacağa asfalt-beton örtüyünün vurulması işlərinin (material və işçiliklə birlikdə) satınalınması üçün*

**MÜSABİQƏ ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il aprelin 23-ü saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

***Ünvan:*** *Bakı, Mikayıl Useynov 2, AZ1003*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1047.*

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**

*ASCO-nun struktur idarələrinə tələb olunan qaynaq tutqaclarının (derjatel) satınalınması məqsədilə*

**MÜSABİQƏ ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il aprelin 23-ü saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı şəhəri, Mikayıl Useynov 2.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1263.*

**BİLDİRİŞ**

Siz 20 iyun 2024-cü il tarixində saat 12:00-da keçiriləcək "Bakı-Əyrici-Toxucu" Açıq Səhmdar Cəmiyyətinin ümumi yığıncağına dəvət olunursunuz.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxildir:**

**1.** 2023-cü il üçün idarə heyətinin, maliyyə-təftiş Komissiyasının, cəmiyyətin illik balansının və auditor hesabatlarının təsdiq edilməsi;

**2.** Təşkilati məsələr Səhmdar Cəmiyyətinin Müşahidə şurasının, İdarə heyətinin və Təftiş komissiyasının yeni tərkibinin seçilməsi;

**3.** Dividendlərin verilməsi haqqında.

Əlavə, Səhmdarlardan xahiş olunur ki, dividendlərin verilməsi üçün bank hesablarını və şəxsiyyət vəsiqəsinin surəti mühasibatlığa təqdim etsinlər.

Bakı şəhəri, Nərimanov rayonu, Qarabağ küçəsi 40

**Əlaqə telefonu:** *496-06-71*

"Bakı-Əyrici-Toxucu" İdarə heyətinin sədri İslam Məmmədov

**"Ağstafa Tikinti Quraşdırma" ASC-nin səhmdarlarının nəzərinə**

27 iyun 2024-cü il saat 10:00-da "Ağstafa Tikinti Quraşdırma" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

**İclasın gündəliyində aşağıdakı məsələlər durur:**

**1.** Səhmdar Cəmiyyətin 2023-cü ilin Maliyyə Təsərrüfat fəaliyyətinin yekunlarının təsdiqi.

**2.** Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Ünvan:** *Ağstafa şəhəri, E.Qələmçəli küçəsi*

**Əlaqə telefonu:** (050) 633-76-07

**"Ağstafa Tikinti Quraşdırma" ASC-nin İdarə heyəti.**

Şəhid atası Aydın Həsən oğlu Sarıyevin adına Ramana qəsəbəsində yerləşən sosial evə verilmiş sənədlər itdiyi üçün etibarsız sayılır.

**ALLAH RƏHMƏT ELƏSİN**

**Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin Mühəndis fizikası və elektronika kafedrasının dosenti**
**NAMİQ TAHİR oğlu ABDULLAYEVİN**
**vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**

## "Bakı Əyrici Toxucu" ASC-nin

### Maliyyə Vəziyyəti Haqqında Hesabat 31 dekabr 2023-cü il tarixinə

| Göstəricilər | 2023 | 2022 | 2021 |
|---|---|---|---|
| Uzunmüddətli aktivlər | 732 646 | 777 198 | 753 042 |
| Əsas vəsaitlərin dəyəri | 637 923 | 671 950 | 636 100 |
| 1.1.1 Binalar, tikintilər və qurğular | 351 130 | 377 559 | 405 970 |
| 1.1.2 Maşınlar və avadanlıq | 280 495 | 285 995 | 218 934 |
| 1.1.3 Nəqliyyat vasitələri | 6 298 | 8 397 | 11 196 |
| 1.2 Qeyri-maddi aktivlərin dəyəri | 94 723 | 105 248 | 1 16 942 |
| Qısamüddətli aktivlər | 3 043 841 | 2 221 224 | 2 227 464 |
| 1.3 Ehtiyatlar | 1 052 183 | 1 457 706 | 1 335 843 |
| 1.3.1 Hazır məhsul | 42 1 1 5 | 41 055 | 33 366 |
| 1.3.2 Mallar | 745 773 | 1 416 651 | 1 302 477 |
| 1.3.3 Bitməmiş istehsal | 264 295 | - | - |
| 1.4 Debitor borcları | 686 785 | 188 157 | 484 067 |
| 1.4.1 Dövlət büdcəsinə (vergilər üzrə) | - | - | 351 135 |
| 1.4.2 Sair debitor borclar | 686 785 | 188 157 | 1 32 932 |
| 1.5 Pul vəsaitləri | 1 304 443 | 235 925 | 149 563 |
| 1.9 Gələcək dövrün xərcləri | 430 | 944 | 500 |
| Sair qısamüddətli aktivlər | - | 338 491 | 257 491 |
| CƏMİ AKTİVLƏR | 3 776 487 | 2 998 422 | 2 980 506 |
| 2.1 CƏMİ KAPİTAL | 2 392 723 | 1 460 070 | 1 684 757 |
| 2.1.1 Nizamnamə kapitalı | 1 597 654 | 1 597 654 | 1 597 654 |
| 2.1.2 Hesabat dövrünün xalis mənfəəti | 795 069 | (1 37 584) | 87 103 |
| Cəmi öhdəliklər | 1 383 764 | 1 538 353 | 1 295 749 |
| Uzunmüddətli öhdəliklər | - | - | - |
| 2.2.1.1 Bank kreditləri | - | - | - |
| Qısamüddətli öhdəlikləri | 1 383 764 | 1 538 353 | 1 295 749 |
| 2.2.1.3 Dövlət büdcəsinə vergi öhdəlikləri | 282 880 | 136 850 | - |
| 2.2.1.5 Sair kreditor borcları | 1 100 883 | 1 401 503 | 1 295 749 |
| 2.2.3 Digər öhdəliklər | - | - | - |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 3 776 487 | 2 998 423 | 2 980 506 |

### 31 dekabr 2023-cü il tarixində bitən il üzrə Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat

| Göstəricilər | 2 023 | 2 022 |
|---|---|---|
| İşlərin görülməsindən, xidmətlərin göstərilməsindən gəlir | 1 1 258 346 | 8 968 567 |
| Daşınan və daşınmaz əmlakın icarəyə verilməsindən gəlir | 4 568 | 6 957 |
| Digər gəlirlər | (2 608) | 6 826 |
| Ümumi gəlirlər | 1 1 260 306 | 8 982 350 |
| Bilavasitə malların təqdim edilməsi və ya işlərin görülməsi ilə bağlı xərclər | 7 673 499 | 6 1 13 244 |
| Malın dəyəri | 772 732 | 921 917 |
| Əmək haqqı və ona bərabər tutulan ödəmələr | 855 619 | 861 953 |
| Sosial sığorta haqları | 169 1 18 | 173 017 |
| Ezamiyyə xərcləri | 7 400 | - |
| İcarə haqqı | 11 587 | 11 557 |
| Enerji xərci | 66 215 | 65 663 |
| Qaz xərci | 46 969 | 51 535 |
| Yanacaq xərcləri | 13 387 | 10 312 |
| Su və kanalizasiya xərci | 44 318 | 45 499 |
| Rabitə xərci | 1 366 | 2 524 |
| Bank xidməti üzrə xərclər | 35 998 | 29 468 |
| Ödənilmiş sığorta haqları | 5 307 | 4 929 |
| Gəlirdən çıxılan vergilər və yığımlar | 6 992 | 6 982 |
| Digər xərclər | 1 679 | 22 484 |
| Cəmi əməliyyat xərcləri | 9 712 1 85 | 8 321 085 |
| Cəmi əməliyyat xərclərindən sonra mənfəət | 1 548 121 | 661 264 |
| Amortizasiya ayırmaları | 100 754 | 86 690 |
| Mənfəət vergisi | 289 473 | 114 014 |
| Maliyyə sanksiyası | | 599 300 |
| Xalis mənfəət və zərər | 1 157 894 | (1 38 740) |

### 31 dekabr 2023-cü il tarixində bitən il üzrə Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| Göstəricilər | 2023 | 2022 |
|---|---|---|
| Əməliyyat fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti: | | |
| Vergidən əvvəl mənfəət | 1 157 894 | (138 740) |
| Köhnəlmə və amortizasiya xərcləri | 100 754 | 86 690 |
| Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklər : | | |
| 1.3.1 Hazır məhsul | (1 060) | (7 689) |
| 1.3.2 Mallar | 670 878 | (114 174) |
| 1.3.3 Bitməmiş istehsal | (264 295) | - |
| 1.4.1 Dövlat büdcəsina (vergilər üzrə) | - | 351 135 |
| 1.4.2 Sair debitor borclar | (498 628) | (55 225) |
| 1.9 Gələcək dövrün xərcləri | 514 | (444) |
| 1.10 Digər aktivlər | 338 491 | (81 001) |
| 2.2.1.3 Dövlət büdcəsinə vergi öhdəlikləri | 146 030 | 136 850 |
| 2.2.1.5 Sair kreditor borcları | (300 619) | 105 752 |
| 2.2.3 Digər öhdəliklər | (225 085) | - |
| Əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri | 1 124 874 | 283 154 |
| İnvestisiya fəaliyyətləri üzrə pul vəsaitlərinin hərəkəti: | | |
| Mülkiyyət və avadanlığın alınması | (56 202) | (110 846) |
| Qeyri-maddi aktivlərin alınması | - | - |
| İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri | (56 202) | (110 846) |
| Maliyyə fəaliyyətləri yaranan pul vəsaitlərinin hərəkəti: | | |
| Nizamnamə kapitalının artımı | - | - |
| Ödənilmiş dividendlər | (155) | (85 946) |
| Maliyyə fəaliyyətlərində istifadə olunan xalis pul vasaitləri | (155) | (85 946) |
| Pul vəsaiti və ekvivalentlərində xalis fərq | 1 068 518 | 86 362 |
| İlin əvvəlində pul vəsaiti və onların ekvivalentləri | 235 925 | 149 563 |
| İlin sonunda pul vəsaitləri və onların ekvivalentləri | 1 304 443 | 235 925 |

### 31 dekabr 2023-cü il tarixində bitən il üzrə İştirakçı kapitalında Dəyişikliklər Hesabatı

| | Nizamnamə kapitalı | Əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|
| 1 yanvar 2022-ci il tarixinə qalıq | 1 597 654 | 87 103 | 1 684 757 |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | |
| 1 yanvar 2022-ci il tarixinə düzəlişlərdən sonra qalıq | 1 597 654 | 87 103 | 1 684 757 |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | | - |
| Kapital qoyuluşu | | | - |
| Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər | | | - |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | (138 740) | (138 740) |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | - |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | (85 946) | (85 946) |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | - |
| Kapitalın maddələr arasında köçürülmələrindən əvvəl 31 dekabr 20X1-ci ıl tarixinə qalıq | 1 597 654 | (1 37 583) | 1 460 071 |
| Kapitalın maddələr arasında köçürülmələr | | | - |
| 31 dekabr 2022-ci il tarixinə qalıq | 1 597 654 | (137 583) | 1 460 071 |
| 2022-ci il üzrə kapitalda dəyişikliklərin cəmi | 1 597 654 | (1 37 583) | 1 460 071 |
| 1 yanvar 2023-cü il tarixinə qalıq | 1 597 654 | (137 584) | 1 460 070 |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | - |
| 1 yanvar 2023-cü il tarixinə düzəlişlərdən sonra qalıq | 1 597 654 | (137 584) | 1 460 070 |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | | - |
| Kapital qoyuluşu | | | |
| Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər | | (225 086) | (225 086) |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | 1 1 57 894 | 1 157 894 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | (155) | (155) |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | - |
| Kapitalın maddələr arasında köçürülmələrindən əvvəl 31 dekabr 2023-cü il tarixinə qalıq | 1 597 654 | 795 069 | 2 392 723 |
| Kapitalın maddələr arasında köçürülmələr | | | - |
| 31 dekabr 2023-cü il tarixinə qalıq | 1 597 654 | 795 069 | 2 392 723 |
| 2023-cü il üzrə kapitalda dəyişikliklərin cəmi | 1 597 654 | 795 069 | 2 392 723 |

### MÜSTƏQİL AUDİTORUN HESABATI
### "Bakı Əyrici Toxucu" ASC-nin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə

**Rəy**

Bizim fikirimizcə, əlavə edilən maliyyə hesabatları Şirkətin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan illər üzrə maliyyə nəticələrini bütün əhəmiyyətli aspektlər baxımından Beynəlxalq Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**Auditin predmeti**

Şikayətin maliyyə hesabatlarına aşağıdakılar daxildir:

- 31 dekabr 2023-cü il tarixində maliyyə vəziyyəti haqqında hesabat;
- həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər haqqında hesabat;
- həmin tarixdə tamamlanan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabat;
- həmin tarixdə tamamlanan il üzrə kapitalda dəyişikliklər haqqında hesabat və
- əsas uçot siyasətlərinin qısa xülasəsi, digər izahedici məlumatlar daxil olmaqla maliyyə hesabatları ilə bağlı qeydlər.

**Rəy üçün əsas**

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

**Maliyyə Hesabatlarının Hazırlanması üzrə Rəhbərliyin Məsuliyyəti**

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, həmçinin fırıldaqçılıq və ya səhv üzündən əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin fikrincə zəruri olan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

**Auditorun Məsuliyyəti**

Bizim məsuliyyətimiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy bildirməkdir. Bu auditi Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun aparmışıq. Həmin Standartlar bizdən etik normalara riayət etməyi, auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir. Auditə maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, auditə mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot ehtimallarının əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə-vergi hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

**Sərbəst auditor: Məmmədov Rüfət Azad oğlu**